28 avqust 2019 №59-60 (1645) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan mədəniyyətlərarası dialoqda mühüm rol oynayır

Prezident İlham Əliyev avqustun 24-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib.

Dövlətimizin başçısı Yusif bin Əhməd Əl-Osayminin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi kimi fəaliyyətini yüksək qiymətləndirib və Azərbaycanla əməkdaşlığa verdiyi önəmə görə ona təşəkkürünü bildirib.

Baş katib Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının çox mühüm üzvü olduğunu vurğulayaraq ölkəmizin dünyada sülhün və təhlükəsizliyin, o cümlədən müsəlman aləmində İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə verdiyi töhfəsinin əhəmiyyətini qeyd edib.

Görüşdə ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqun genişləndirilməsində mühüm rol oynadığı qeyd edilib, Azərbaycanın dünyada bütün dinlərin və məzhəblərin sülh şəraitində birgə yaşadığı nümunəvi ölkə olduğu bildirilib, 2017-ci ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının önəmi vurğulanıb.

Söhbət zamanı Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Milli-mənəvi dəyərlərin təəssübkeşi

Azərbaycan Milli Kitabxanasında "Milli-mənəvi dəyərlərin təəssübkeşi" adlı kitab sərgisinin açılışı keçirildi. Sərgi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın doğum gününə həsr olunub.

səh. 3

## Üzeyir işığına kimlər yığışacaq?

Sentyabrın 18-dən 30-dək Bakı yenə də Üzeyir Hacıbəyli musiqisinin sehrinə düşəcək. Hələ sovetlər dövründə hər il 18 sentyabrda – böyük bəstəkarın doğum günündə musiqi ictimaiyyətinin nümayəndələri Üzeyir bəyin Fəxri xiyabandakı məzarını ziyarət edər, həmin günü indiki Bakı Musiqi Akademiyasının önündə elə onun adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edərdi.

Akademik Opera və Balet Teatrı milli operamızın banisinin əsəri ilə yeni mövsümə başlardı. Maestro Niyazinin təşəbbüsü ilə başlamış bu tədbirlər 1995-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə 18 sentyabrın Milli Musiqi Günü (Üzeyir Musiqi Günü) elan edilməsi ilə bu günün anlamını, miqyas və əhəmiyyətini daha da böyütdü.

2009-cu ildə dahi musiqiçiyə həsr olunmuş beynəlxalq festivalın əsası qoyuldu. Bu il Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı 11-ci dəfə keçiriləcək.

səh. 5

## Bakıda dördüncü dəfə İndoneziya mədəniyyəti festivalı keçiriləcək

İndoneziyanın Azərbaycandakı səfirliyi sentyabrın 11-15-də Bakıda 4-cü İndoneziya mədəniyyəti festivalı keçirəcək. Tədbir Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşacaq. Festivalda İndoneziyanın Təhsil və Mədəniyyət, Gənclər və İdman, eləcə də aidiyyəti digər nazirlikləri təmsil olunacaq.

səh. 4




## TÜRKSOY-un Gənclər Kamera Orkestrinin Orta Asiya və Azərbaycan turu

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Gənclər Kamera Orkestrinin Orta Asiya turnesi Qazaxıstanın Türküstan şəhərində konsertlə başlayıb.

Türk dünyasının müxtəlif ölkələrindən gənc sənətçilərin bir araya gəlməsi ilə yaradılan orkestrin konserti sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

davamı səh. 2-də

# "Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi hər birimizin ən müqəddəs arzusudur"

Avqustun 26-da Heydər Əliyev Mərkəzində bir qrup məcburi köçkünün iştirakı ilə tədbir keçirilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib və ad gününü onlarla birlikdə qeyd edib.

"Burada toplaşanların bir arzusu var – ərazi bütövlüyümüzün tezliklə bərpası". Bu sözləri Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib. Komitə sədri ölkəmizdə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində görülən işlərdən danışıb.

Sonra konsert proqramı təqdim edilib.

Tədbirə Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva da gəliblər.

Əvvəlcə tədbir çərçivəsində təşkil edilən sərgi ilə tanışlıq olub.

Tədbirdə Xocavənd, Şuşa, Ağdam, Füzuli rayonlarının təmsilçilərinin, "Şuşanın dağları" ansamblının ifaları səslənib.

Məcburi köçkünlər qarşısında çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva dəvətə görə minnətdarlığını deyib:



– Bu gün ad günümdə sizinlə bərabər olmaq, doğma insanların əhatəsində olmaq mənim üçün çox xoşdur.

Əminəm ki, sizin hər birinizin qəlbində yaşayan arzu hər bir azərbaycanlının ən müqəddəs arzusudur - torpaqlarımızın işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qarabağ torpağında Azərbaycanın üçrəngli bayrağının dalğalanması.

davamı səh. 2-də

## "Şərq tərənələri" dünya musiqilərini bir araya gətirib

Avqustun 26-da Özbəkistanın Səmərqənd şəhərində "Şərq tərənələri" XII Beynəlxalq Musiqi Festivalının açılış mərasimi keçirilib.

Musiqi bayramında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, UNESCO-nun Baş direktoru Odri Azule, MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev, Rusiya Prezidentinin mədəniyyət məsələləri üzrə müşaviri Vladimir Tolstoy, bir sıra ölkələrin mədəniyyət nazirləri və digər yüksək səviyyəli qonaqlar, səfirlər, beynəlxalq təşkilatların nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, səfirliyin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov da açılış mərasiminə qatılıblar.



Prezident Şavkat Mirziyoyev mərasimdə çıxış edərək nümayəndə heyətlərini salamlayıb, festival iştirakçılarına uğurlar arzulayıb. Dövlət başçısı bildirib ki, festivalın populyarlığı ildən-ilə artır. Belə ki, birinci festivalda 30 ölkə iştirak etmişdisə, budəfəki festivalda 75 ölkə təmsil olunur.

UNESCO-nun Baş direktoru Odri Azule xalqlar arasında etimadın möhkəmlənməsində "Şərq tərənələri" Beynəlxalq Musiqi Festivalının böyük rolu olduğunu vurğulayıb.

Dünyanın 75 ölkəsindən 340 ifaçının qatıldığı festivalda ölkəmizi gənc xanəndə Pərviz Qasımov təmsil edir. Onu çıxışı zamanı Əməkdar artist Malik Mansurov (tar), Əməkdar artist Elşən Mansurov (kamança) və Ramin Abdullayev (nağara) müşayiət edəcəklər.

davamı səh. 3-də

## "Bir gün Qarabağda"

Avqustun 26-da Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Şamaxı rayonunda "Beynəlxalq Azərbaycan muğamı günü"nə həsr olunmuş "Bir gün Qarabağda" adlı konsert keçirilib.

Avaxıl kəndi yaxınlığında açıq havada məcburi köçkünlər üçün təşkil olunmuş konsertə Beynəlxalq Muğam Mərkəzi, Xocalı, Xocavənd, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Füzuli, Cəbrayıl, Qubadlı və Şamaxı rayon icra hakimiyyətləri dəstək veriblər.

Azərbaycan mədəniyyəti tarixində muğam ifaçılığının Qarabağ və Şirvan məktəbləri önəmli yer tutur. Hər iki məktəbin yetirmələri milli mədəniyyətimizin inkişafına sanballı töhfələr veriblər və bu missiyanı gənc ifaçılar nəsli davam etdirir.

davamı səh. 4-də



## "Khaleej Times" nəşri Milli Xalça Muzeyindən yazır

Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu ingilisdilli nəşri – Yaxın Şərq bölgəsi üzrə, eləcə də region üçün mühüm sayılan ölkələrlə bağlı maraqlı yazı və reportajlar hazırlayan "Khaleej Times" qəzetində Azərbaycan Milli Xalça Muzeyi barədə material yayımlanıb.



23 avqust 2019-cu il tarixində dərc olunan "Sehrli xalçalar diyarı olan Bakı ilə tanışlıq" başlıqlı yazıda müəllif Şeyx Ayaz muzeyin yeni binasının gözəlliyi və möhtəşəm memarlığı, eləcə də kolleksiyaların zənginliyi haqqında məlumat verir, xalçanın və xalçaçılıq sənətinin Azərbaycan xalqının mədəni irsi, məişət və mənəviyyatında xüsusi rolundan bəhs edir. Bildirir ki, Azərbaycan Milli Xalça Muzeyi qədim sivilizasiyanın bu beşiyində xalçaçılığın mənəvi dəyərlərini əks etdirir.

davamı səh. 6-da

## Hafizələrdə iz salan kiçik rollar ifaçısı

İşıqlı düşüncəyə malik insanlar mütləq yaradıcı olurlar. Belə insanlar çox vaxt nəticə etibarilə həyat və yaşam üçün vacib olan ümdə peşələri özündə əks etdirən aktyorluq məsləyini seçirlər, bir ömürdə min ömür yaşayırlar. İstedadlı aktyor Fazil Salayev də həyat fəlsəfəsini, xarakterləri sevib-seçdiyi məsləyində tədqiqat obyektinə çevirən sənətkarlarımızdandır.

Onun haqqında "az yazılıb, az danışılıb" sözləri işlənsə də, yazılan məqalələr, hazırlanan verilişlər istedad sahibinin yaradıcılığının gənc nəsillərin də diqqətində olduğundan xəbər verir.

səh. 7

### "Qodonun intizarında" nümayiş etdiriləcək



səh. 3

### Ölkəmiz Afinada Dünya Kitabxana və Məlumat Konqresində təmsil olunur

səh. 4



### Ukraynada müğənni soydaşlarımızın konsertləri

səh. 5

## Şeyxülislam Allahşükür Paşazadə "Heydər Əliyev" ordeni ilə təltif edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Şeyxülislam Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə ölkəmizin ən ali təltifinə layiq görülüb.

***

Avqustun 26-da Şeyxülislam Allahşükür Paşazadənin 70 yaşı tamam olub. Prezident İlham Əliyev Allahşükür Paşazadəni anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi münasibətilə təbrik edib.

Təbrikdə deyilir: "Xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı Siz həm dini rəhbər, həm də ictimai xadim kimi həmişə yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmisiniz. Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyimizin dünya ictimaiyyətinə çatdırılması sahəsində səmərəli xidmətlər göstərmisiniz".

Dövlət başçısı Şeyxülislam Allahşükür Paşazadənin təkcə Azərbaycanın deyil, həm də dini lideri olduğu bütün Qafqaz müsəlmanlarının problem və qayğılarının beynəlxalq ictimaiyyətə çatdırılmasında rolunu, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun dərinləşməsinə sanballı töhfələrini qeyd edərək ona uzun ömür, möhkəm cansağlığı, nəcib və şərəfli fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

## Birinci vitse-prezidentə təbrik məktubları

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya doğum günü münasibətilə təbrik məktubu göndərib.

Vladimir Putin təbrik məktubunda Mehriban xanım Əliyevanın çoxillik fəaliyyəti ilə böyük beynəlxalq nüfuz qazandığını vurğulayaraq onun Rusiyanın dostu kimi, tanındığını qeyd edib: "Əminəm ki, bu münasibətlər Rusiya və Azərbaycan xalqlarının mənafeyi naminə, regional sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi maraqlarına uyğun olaraq bundan sonra da məhsuldar şəkildə inkişaf edəcək".

Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko, Qazaxıstan Respublikası Parlamenti Senatının sədri Dariqa Nazarbayeva, Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanov, digər rəsmilər də Mehriban Əliyevaya təbrik məktubları göndəriblər.

# "Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi hər birimizin ən müqəddəs arzusudur"





əvvəli səh. 1-də

Mən sizin hər birinizə dərin hörmətimi, minnətdarlığımı və məhəbbətimi çatdırıram. Bu gün sizə cənab Prezidentin böyük hörmətini və məhəbbətini çatdırıram. Bildiyiniz kimi, uzun illərdir ki, məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması dövlətimizin ən prioritet məsələlərindən biridir. Bu illər ərzində bu sahədə çox işlər görülüb. Məcburi köçkünlərin, bizim əziz soydaşlarımızın yaşayış şəraitinin yaxşılaşdırılması, onların işlə təmin olunması, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin borcudur. Azərbaycan dövləti bu yolda çox böyük nailiyyətlər əldə edib.

Altmış minə yaxın soydaşımız yeni mənzillərlə təmin olunub. Ötən il 5900 qaçqın və məcburi köçkün ailəsi yeni evlərlə təmin edilib. Bu il 6 minə yaxın yeni mənzil istifadəyə veriləcək. "Qobu Park-2" yaşayış qəsəbəsində işlər bu yaxınlarda tamamlanacaq və yenə də 1300 məcburi köçkün ailəsinin yaşayış şəraiti yaxşılaşacaq. Amma bu, müvəqqətidir. Çünki bir daha deyirəm, bizim arzumuz başqadır. Bizim vahid arzumuz "Qarabağ şikəstəsi"ni Qarabağ torpağında birlikdə eşitməkdir.

Mən əminəm ki, Prezidentimizin, dövlətimizin qəti siyasəti və mövqeyi, Allahın köməyi ilə biz buna nail olacağıq. Çox sağ olun.

Sonra xatirə şəkli çəkdirilib.

Məcburi köçkünlər Birinci vitse-prezident Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edərək ən xoş arzularını çatdırıb, dövlətin, o cümlədən Birinci vitse-prezidentin qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərə görə minnətdarlıqlarını bildiriblər.

Birinci vitse-prezidentə "Şuşanın qalası" rəsm əsəri hədiyyə edilib.

***

Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət ediblər.

VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə İslam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin dörd nümayəndəsi uyuyur. Milli-mənəvi dəyərlərimizə dərindən bağlı olan ulu öndər Heydər Əliyev 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət edib, 1997-ci il iyulun 23-də, Məhəmməd Peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoyub, bir il sonra, yenə Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin maddi mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapıb. 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin əsaslı yenidənqurmadan sonra açılışında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması, onların təbliği, dünyaya çatdırılması istiqamətində çox mühüm işlər görür. Qədim məscidlərimizin bərpası, yeni müasir məscid komplekslərinin inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Birinci vitse-prezident Mehriban Əliyevaya məsciddə müqəddəs Qurani-Kərim təqdim olunub.

***

Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da həmçinin paytaxtın Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışlarında, valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Heydər Əliyev Fondunun "Dalğa Beach" istirahət mərkəzində təşkil etdiyi əyləncə və istirahət proqramında iştirak edib, Bilgəhdəki Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində olublar.

# Ailə, dəyərlər və xoşbəxtlik haqqında

### Mehriban Əliyeva: "Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir"

Avqustun 26-sı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın ad günüdür. Bu münasibətlə "Trend" informasiya agentliyi Birinci vitse-prezident Mehriban xanım Əliyevaya müraciət edərək, ondan özü, fəaliyyəti, ailəsi, onun həyati dəyərləri barədə danışmasını xahiş edib.

Mehriban Əliyeva bununla bağlı agentliyə məktub göndərib. Məktubda deyilir:

- Əvvəlcə, bu günlərdə mənə ünvanlanmış təbriklərə görə hamıya ürəkdən dərin minnətdarlığımı bildirirəm. Sizin səmimiyyət və mehribanlığınız, dəstək və sevginiz məni dərindən təsirləndirib. Sadə əməyimi qiymətləndirən, ideallarıma inanıb onu bölüşən hər kəsə minnətdaram. İstər ictimai, istərsə də dövlətçilik fəaliyyətimdə daim çalışıram ki, sarsılmaz həqiqətlərə söykənim. Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir.

Mən ənənəvi dəyərlərin əsas götürüldüyü Azərbaycanın ziyalı ailəsində dünyaya göz açıb, boya-başa çatmışam. Bizi, gənc nəsli böyüklərin nüfuzunun və davranışının ən yaxşı nümunə olduğu, ailənin hər bir kiçik üzvünə üzərinə düşən məsuliyyəti daşımağın öyrədildiyi böyük və möhkəm ailədəki ab-hava formalaşdırıb.

Yaşa dolduqca böyükləri, valideynləri anlamağa başladım, onlara sonsuz minnətdarlıq hissi duydum. Çünki onlar həqiqətə və mənəviyyata can atmağı öyrətdilər. Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət – həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur.

Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Anamı itirdiyim vaxtdan artıq 27 il ötür. Onun yoxluğunu hər zaman hiss edirəm.

Atam akademik Arif Paşayev mənim üçün insanlıq, xeyirxahlıq və müdriklik idealıdır. Onun elm və təhsil sahəsindəki nailiyyətləri haqqında çox yazılıb. Atamın insani keyfiyyətləri – onun tükənməz nikbinliyi, başqalarının dərdinə şərik olmaq, onları dəstəkləmək, hamı ilə dil tapmaq xüsusiyyəti, öz müsbət enerjisini ətrafındakı bütün insanlarla bölüşmək istedadı, müdrikliyi və sonsuz xeyirxahlığı mənim həyat amalımdır. O, uzun illərdir ki, Milli Aviasiya Akademiyasına rəhbərlik edir. Tələbələrlə rektor arasında qarşılıqlı hörmət, isti yoldaşlıq münasibətləri atamın yüksək şəxsi və peşəkar keyfiyyətlərinə daha bir sübutdur.

Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir.

Ailə mənim üçün, düşünürəm ki, elə hər kəs üçün istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir.

Həyat yoldaşım Prezident İlham Əliyev 16 ildən çoxdur ki, xalqımıza xidmət edir. Azərbaycanın qüdrətli, uğurla inkişaf edən, bütün dünyada nüfuz qazanan və bizim – müstəqil Azərbaycan vətəndaşlarının haqlı olaraq qürur duyduğu bir ölkə olması istiqamətində onun bütün nailiyyətləri öz xalqına təmənnasız sevgi və sədaqətinə əsaslanır. Onun başlıca missiyası – hər zaman və hər yerdə Vətənimizin maraqlarını qorumaqdır.

O, bu son dərəcə çətin yolda nədən güc alır? İlk növbədə, öz xalqının dəstəyindən, inamından və sevgisindən.

İnanıram ki, xoşbəxt şəxsi ailə həyatı, sevgi və qarşılıqlı hörmət ab-havası da burada əvəzolunmaz rol oynayır.

Mən öz övladlarımla fəxr edirəm. İlk növbədə, ona görə ki, onlar nəcib və ləyaqətli insan kimi böyüyüblər. Onların hərəkətlərinə görə heç vaxt utanc və məyusluq hissi keçirməmişəm. Çünki Leyla, Arzu və Heydər öz işinə, təhsilinə ciddi və məsuliyyətlə yanaşır, ailə ənənələrini yüksək tutur, hörmət bəsləyir, onların dəqiq mənəvi amalları var. Xoşbəxtəm ki, övladlarım xeyirxah və başqalarının dərdsərinə biganə qalmayan insanlardır. Mən onlara inanıram, çünki dürüstlük və ləyaqətlə yanaşı, bu həyatda ən yaxşı bələdçi – insanlıq və şəfqətdir.

Mən nadir hallarda müsahibə verirəm və özüm haqqında danışmağı xoşlamıram. Həyatım elə gətirib ki, mən ictimai şəxsiyyətəm, lakin heç vaxt tanınmağa, məşhur olmağa can atmamışam. Əgər hansısa nəticələr əldə etməyə nail oluramsa, fəaliyyətim fayda gətirirsə, ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa – bu, mənim üçün ən yüksək mükafatdır.

Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir. Xoşbəxtlik vicdan və niyyətin təmiz olması, sevgi və xeyirxahlığın həyatın əsas qayəsinə çevrilməsidir.

Şübhəsiz ki, hər bir uğur və nailiyyət komanda işindən asılıdır. Fəxr edirəm ki, bütün bu illər ərzində mənimlə çiyin-çiyinə parlaq, istedadlı, məqsədyönlü, zəhmətsevər, həssas insanlar mənim məsləkdaşlarım, həmfikirlərim olublar. Onların hamısına – uzun illər ərzində işlədiyim hər kəsə, bizim layihələrə və təşəbbüslərə heç olmasa bircə dəfə qoşulanlara dərin təşəkkürümü və ehtiramımı bildirirəm.

Ən yaxşı xüsusiyyətlərini əsrlər boyu qoruyub saxlamaq istedadına, qəhrəmanlığına, doğma torpağa sədaqətinə, xeyirxahlığına və qəlbinin genişliyinə görə Azərbaycan xalqına, ölkəmizin hər bir vətəndaşına səmimi qəlbdən minnətdarlığımı bildirirəm!

Qoy, Uca Allah hər birinizi və bizim gözəl Vətənimizi qorusun!

## Qırğızıstanla əməkdaşlıq məsələləri müzakirə olunub

Qırğızıstanın Xarici İşlər naziri Çingiz Aydarbekov Azərbaycanın bu ölkədəki səfiri Hidayət Orucovla görüşüb.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb, iqtisadi, mədəni-humanitar sahələrdə əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Bu istiqamətdə Qırğızıstan-Azərbaycan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının növbəti iclasının keçirilməsi, Bişkekdə Heydər Əliyev parkının və orta məktəbin tikintisi ilə bağlı məsələlər də diqqət mərkəzində olub.

Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının bu ilin oktyabr ayında Azərbaycanda keçiriləcək yeddinci Zirvə görüşü və bu tədbirdə Qırğızıstanın iştirakı məsələləri müzakirə edilib. Zirvə görüşündə müzakirə ediləcək mövzular və təşkilati məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Soydaşlarımızın qurduğu nəşriyyat Fransanın kitabxana şəbəkəsində

Strasburq şəhərində fəaliyyət göstərən "Kəpəz" nəşriyyat evi Fransanın Milli və Universitet Kitabxanası (BNU) şəbəkəsində rəsmi qeydiyyatdan keçib.




Nəşriyyatın rəhbəri Nicat Kazımov bu barədə məlumat verib. O bildirib ki, nəşriyyat evinin bu günə qədər işıq üzü görmüş bütün kitabları BNU-da artıq mövcuddur.

Strasburq Milli və Universitet Kitabxanasında Azərbaycan bölməsi də fəaliyyət göstərir. "Kəpəz"in nəşrləri bu bölmədə yerləşdirilib. Gələcəkdə oxucular nəşriyyat evinin bütün kitabları ilə tanış ola biləcəklər.

BNU şəbəkəsində Nəriman Nərimanovun "Bahadır və Sona", Hüseyn Abbaszadənin "Haradansınız Müsyö Abel?", "Azərbaycan ədəbiyyatı antologiyası - XIX əsrdən günümüzə qədər", Əhməd bəy Ağayevin "Müsəlman dünyasında reformlar", Çingiz Abdullayevin "Şübhəsiz metamorfoza", Timuçin Hacıbəylinin "Mühacirlərin həyatı" kitablarını əldə etmək olar.

## TÜRKSOY-un Gənclər Kamera Orkestrinin Orta Asiya və Azərbaycan turu

əvvəli səh. 1-də

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov çıxış edərək gənc istedadların bu konsertlər vasitəsilə türk bəstəkarlarını dünyaya tanıtdıqlarını bildirib. O, orkestrin turnesinin Türk Şurasının yaradılmasının 10 illiyinə həsr olunduğunu söyləyib.

On ölkəni təmsil edən gənc sənətçilərdən ibarət orkestrə Tatarıstandan Renat Salavatov, Qazaxıstandan Ənvər Əkbərov və Azərbaycandan Mustafa Mehmandarov rəhbərlik edirlər.

Orkestrin turnesi sentyabrın 2-dək Qazaxıstanın Şımkent, Taraz və Almatı şəhərlərində konsertlərlə davam edəcək.

Sentyabrın 4-də Qırğızıstanda, 9-da isə Azərbaycanda konsertlər keçiriləcək.

Qeyd edək ki, 2010-cu ildə yaradılan orkestr dünyanın müxtəlif şəhərlərində 60-a yaxın konsert verib.

# Milli-mənəvi dəyərlərin təəssübkeşi

## Milli Kitabxanada Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətinə həsr olunmuş sərgi açılıb



Avqustun 26-da M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Milli-mənəvi dəyərlərin təəssübkeşi" adlı kitab sərgisinin açılışı keçirildi. Sərgi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın doğum gününə həsr olunub.

Milli Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək bildirdi ki, 26 avqust Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərinin hamisi, onların qorunmasında və dünya miqyasında tanıdılmasında əvəzsiz rolu olan Mehriban xanım Əliyevanın anadan olduğu gündür: "Əgər biz milli-mənəvi dəyərlərdən danışırıqsa, onun müstəsna xidmətlərini qeyd etməmək mümkün deyil. Milli Kitabxananın kollektivi adından Mehriban xanımı təbrik edirəm".

Direktor qeyd etdi ki, Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban Əliyevanın böyük rolu var: "Heydər Əliyev Fondunun nəşr etdiyi kitablar Azərbaycanın vizit kartı hesab olunur. Bizim xaricdə iştirak etdiyimiz sərgilərdə Heydər Əliyev Fondunun nəşr etdiyi kitablar da təqdim olunur və çox böyük maraqla qarşılanır. Biz də Milli Kitabxana olaraq həmin kitabların bütün dünya kitabxanalarına göndərilməsinə, təbliğ olunmasına çalışırıq. Biz bu kitabların elektron variantlarını da hazırlayıb oxuculara təqdim etmişik. Bu nəşr layihələrinin gələcək nəsillərə çatdırılmasında üzərimizə düşən missiyanı bundan sonra da layiqincə yerinə yetirəcəyik".

Mehriban xanım Əliyevanın UNESCO-nun xoşməramlı səfiri kimi gördüyü işlərdən bəhs edən Kərim Tahirov dedi: "Bu gün bir sıra tarixi abidələrimiz, mədəni irs nümunələrimiz UNESCO-nun müxtəlif siyahılarında yer alır. Bu uğurlara heç də asanlıqla nail olunmur. Heydər Əliyev Fondu təkcə Azərbaycan mədəniyyətinin yox, bütövlükdə bəşər mədəniyyətinin qorunub gələcək nəsillərə çatdırılmasına töhfələr verir. Mehriban xanım Birinci vitse-prezident kimi də təhsil, mədəniyyət, səhiyyə sahəsində böyük işlərə imza atır. Azərbaycan Milli Xalça Muzeyinin, Beynəlxalq Muğam Mərkəzinin tikilməsi ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən çox əhəmiyyətli layihələrdəndir. Heydər Əliyev Fondunun muğam sənətinin qorunub gələcək nəsillərə ötürülməsi yolunda gördüyü işlər də diqqətəlayiqdir. Bu gün Azərbaycanda keçirilən beynəlxalq muğam müsabiqələri Mehriban xanımın himayədarlığı ilə gerçəkləşir. Heç bir ölkədə milli musiqi Azərbaycandakı qədər dövlət tərəfindən qorunub yaşadılmır".

Sonra Mehriban xanım Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirildi.

Tədbir iştirakçıları "Milli-mənəvi dəyərlərin təəssübkeşi" adlı sərgi ilə tanış oldular. Sərgidə Mehriban Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş nəşrlər təqdim edilir.

**Fariz HÜSEYNOV**

# "Şərq təranələri" dünya musiqilərini bir araya gətirib

## 75 ölkənin qatıldığı festivalda Azərbaycan da təmsil olunur

*əvvəli səh. 1-də*

Azərbaycan təmsilçiləri ötən illərdə bu nüfuzlu musiqi festivalında uğurla iştirak ediblər. 1997-ci ildə Səmərqənddə keçirilən birinci festivalda Azərbaycanın Xalq artisti Simarə İmanova Qran-pri mükafatına layiq görülüb. 2017-ci ildə gerçəkləşən XI festivalda isə Əməkdar artist, tarzən Sahib Paşazadə Qran-prini ikinci dəfə Azərbaycana gətirib. Ayrı-ayrı vaxtlarda ustad xanəndə Alim Qasımov, həmçinin Aygün Bəylər, Qoçaq Əsgərov festivalda birinci, Zabit Nəbizadə isə ikinci yerləri tutublar.

Xatırladaq ki, UNESCO-nun da dəstək verdiyi "Şərq təranələri" festivalı 1997-ci ildən etibarən iki ildən bir keçirilir.

Festival avqustun 30-dək davam edəcək.

***





Ənənəvi olaraq Səmərqənd festivalı çərçivəsində beynəlxalq elmi konfrans da keçirilir. Budəfəki konfrans "Maddi və qeyri-maddi mədəni irsin qorunması: aktual problemlər və strategiyalar" mövzusuna həsr olunub. Beynəlxalq konfransda 30-dan çox ölkədən gələn 300-dək şərqşünas alim, ekspert, UNESCO-nun nümayəndələri iştirak edirlər.

Konfransa AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik Şahin Mustafayevin rəhbərliyi ilə Azərbaycan alimləri də qatılıb.

Tədbiri Özbəkistan Respublikasının Baş Naziri Abdulla Aripov açaraq maddi və qeyri-maddi mədəni irsin qorunması sahəsində ölkədə görülən işlər haqqında məlumat verib.

Daha sonra çıxış edən UNESCO-nun Baş direktoru Odri Azule bildirib ki, maddi və qeyri-maddi dəyərlərin qorunması, mədəniyyətlərarası dialoqun inkişafında universal dil olan musiqinin inkişafı sahəsində Özbəkistanda çox iş görülüb.

Səmərqəndi "Şərqin mirvarisi" adlandıran MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev bildirib ki, hər dəfə bu qədim şəhərə gələndə, onun təkrarsız abidələrinə baxmaq heyranlıq doğurur.

Konfransın bölmələr üzrə keçirilən iclaslarında Azərbaycan alimlərinin də çıxışları dinlənilib.

***

"Şərq təranələri" XII Beynəlxalq Musiqi Festivalı çərçivəsində Səmərqəndin "Reqistan" meydanında bu qədim şəhərdə bişirilən 52 növ çörəyin yer aldığı sərgi də açılıb.

Sərgidə buğda, arpa, çovdar, qarğıdalı unundan hazırlanan müxtəlif növ və biçimdə olan çörəklər nümayiş etdirilir.

## "Muğam dünyasına səyahət"də növbəti konsert

Beynəlxalq Muğam Mərkəzinin təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə reallaşan "Muğam dünyasına səyahət" layihəsinin növbəti konsert proqramı avqustun 25-də Buzovna qəsəbəsi Ruhulla Axundov adına Mədəniyyət evində keçirilib.

Buzovna sakinləri qarşısında tarzən Əli Əliyev və kamança ifaçısı Abbas Əliyevin müşayiəti ilə xanəndələr Elgiz Əliyev, Könül Xəlilzadə və Məhəbbət Səfərov çıxış ediblər. Təqdim edilən "Segah", "Mahur", "Şur" muğamları və təsniflər maraqla qarşılanıb.

Qeyd edək ki, bu ilin iyul ayından start götürən "Muğam dünyasına səyahət" layihəsi ilin sonuna kimi davam edəcək.

## "Qodonun intizarında" nümayiş olunacaq

Sentyabrın 28-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında fransız əsilli irlandiyalı yazıçı-dramaturq Semuel Bekketin "Qodonun intizarında" pyesi əsasında hazırlanan eyniadlı tamaşa nümayiş ediləcək.

Səhnə əsərinin bədii rəhbəri Əliqismət Lalayev, quruluşçu rejissoru Yunis Vəlipur, tərcümə edəni Şövqi Hüseynovdur. Rolları əməkdar artistlər Əzizağa Əzizov, Şövqi Hüseynov və başqaları ifa edəcək. Tamaşanın quruluşçu dirijoru və musiqi tərtibatçısı Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterləri əməkdar artistlər Zakir Ağayev və Yelena Ağayevadır.

Qeyd edək ki, dünyada ilk dəfə Semuel Bekketin bu məşhur əsərinə simfonik musiqini Azərbaycan bəstəkarı – Xalq artisti, professor Fərəc Qarayev yazıb.

## Mədəni əlaqələrin inkişafında xidmətlərinə görə

Azərbaycanın Mərakeş Krallığındakı səfiri Oktay Qurbanov bu ölkənin mədəniyyət və kommunikasiya naziri, Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Məhəmməd Laaraca "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalını təqdim edib.



Səfir Azərbaycan ilə Mərakeş arasında mədəni əlaqələrin inkişafında Məhəmməd Laaracın xüsusi rolunu qeyd edərək onun həm nazir, həm də Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin sədri qismində səmərəli fəaliyyətinin Azərbaycan Hökuməti tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Nazir Məhəmməd Laarac Azərbaycan diplomatiyasının yubiley medalı ilə təltif olunmasına görə dərin minnətdarlığını ifadə edərək bundan sonra da ölkəmizlə münasibətlərin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Azərbaycan ilə Mərakeş arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı, birgə tədbirlərin təşkili, hər iki ölkədə keçirilən beynəlxalq əhəmiyyətli mədəni tədbirlərdə qarşılıqlı iştirak ətrafında fikir mübadiləsi aparılıb.

# Yay düşərgəsinin iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib

Qubada şəhid ailələrinin, müharibə əlilləri və iştirakçılarının, müharibə veteranlarının, 20 Yanvar şəhidlərinin ailə üzvləri olan yeniyetmə və gənclərin cəlb olunduğu birhəftəlik düşərgəyə yekun vurulub.



Prezident yanında Gənclər Fondu, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən yay istirahət düşərgəsində 100 nəfər yeniyetmə və gənc iştirak edib.

Düşərgə iştirakçıları bir həftə ərzində müvafiq qurumların hərbi hissələrində təlimlərə cəlb olunub, hərb elminin sirlərinə yiyələniblər. Yeniyetmələrə silah və hərbi texnika, əsgərlərin yaşam tərzi, sərhədlərimizin qorunması haqqında peşəkar zabitlər tərəfindən ətraflı məlumat verilib.

Gənclər Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev, Aprel döyüşlərinin iştirakçıları ilə görüşlər keçirib, Quba və Qusarın görməli yerlərini gəziblər.

Qusarda Milli Qəhrəman Çingiz Qurbanovun məzarını ziyarət edən gənclərə onun qısa, lakin şərəfli ömür yolu haqqında ətraflı məlumat verilib.

Düşərgənin son günü layihə iştirakçıları ilə Quba Rayon İcra Hakimiyyətində görüş keçirilib.

Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli bildirib ki, layihənin əsas məqsədi gənclər arasında hərbi-vətənpərvərliklə bağlı təbliğat işlərini aparmaq, gənclərdə ordumuza olan inamın artırılmasına dəstək olmaqdır.

Görüşdən sonra Quba Soyqırımı Memorial Kompleksini ziyarət edən düşərgə iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında məlumatlandırılıblar. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb.

## Tarix Muzeyi ilə Avstriya universiteti arasında memorandum

Avqustun 26-da Avropa Komissiyasının "Horizon-2020" proqramı tərəfindən maliyyələşdirilən "Biliyin mübadiləsi və akademik mədəniyyətlər humanitar elmlərdə: Avropa və Qara dəniz bölgəsi" layihəsinin rəhbəri və üzvləri AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində (MATM) olublar.

Layihənin baş əlaqələndiricisi – Avstriya Karol və Frans adına Qrats Universitetinin Cənub-Şərqi Avropanın tarixi və antropologiyası kafedrasının müdiri, professor Karl Kazer, Bolqarıstanın Cənub-Qərb Universitetinin əməkdaşları, dosentlər Maryana Piskova və Anastasiya Paşova layihənin Azərbaycan üzrə milli əlaqələndiricisi – AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri Zaur Həsənov MATM-in direktoru, akademik Nailə Vəlixanlı ilə görüşüblər.

Akademik Nailə Vəlixanlı muzeyin elmi fəaliyyəti, fondları haqında ətraflı məlumat verib.

Qonaqlar muzeyin Şərq zalı və orada gedən bərpa işləri ilə tanış olublar. Muzeyin zəngin fondları, kolleksiyası qonaqların marağına səbəb olub. Onlar muzeydə araşdırma aparmaq istədiklərini bildiriblər. Tədqiqatın məqsədi muzeydə qorunan fotomaterial və digər sənədli materialların sistemli şəkildə daha peşəkar təhlil olunmasıdır.

Qeyd edək ki, Avstriya Karol və Frans adına Qrats Universiteti və Milli Azərbaycan Tarixi Muzeyi arasında memorandum imzalanacaq. Memorandumun əsas məqsədi beynəlxalq əlaqələrin inkişafı və elmi biliklərin mübadiləsindən ibarətdir.

# Mənəvi dəyərlərimizin qorunması və təbliği

Naxçıvanda milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb.

Bu barədə Ordubad rayonunun Dırnıs kəndində keçirilən növbəti "Xalq yaradıcılığı günləri" adlı tədbirdə danışılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Səyyar Məmmədov və Ordubad rayonundakı Kotam kənd Mədəniyyət evinin metodisti Rəcəb Quliyev çıxış ediblər.

Bildirilib ki, muxtar respublika Ali Məclisi sədrinin 2009-cu il 7 fevral tarixli sərəncamına uyğun olaraq muxtar diyarın bütün bölgələrində xalq yaradıcılığı nümunələrinin, milli dəyərlərimizin aşkarlanması, təbliği və tətbiqinə yönəlmiş ənənəvi "Xalq yaradıcılığı günləri" adlı tədbirlər keçirilir. Belə tədbirlər unudulmaqda olan milli dəyərlərimizin yenidən xalqımıza qaytarılmasında mühüm rol oynayır.

"Xalq yaradıcılığı günləri" tədbirində Ordubad Rayon Mədəniyyət Şöbəsinin tabeliyindəki Uşaq musiqi məktəbinin muğam ansamblının, mədəniyyət evləri və klubların dərnək üzvlərinin, rəqs və yallı qruplarının, eləcə də folklor kollektivlərinin ifasında "Tənzərə" yallısı, "Nar ağacı, nar çiçəyi" xalq mahnısı, "Şur" təsnifi, "Ruhani" aşıq havası, digər xalq yaradıcılığı nümunələri təqdim edilib.

# Bakıda dördüncü dəfə İndoneziya mədəniyyəti festivalı keçiriləcək

İndoneziyanın Azərbaycandakı səfirliyi sentyabrın 11-15-də Bakıda 4-cü İndoneziya mədəniyyəti festivalı keçirəcək. Tədbir Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşacaq. Festivalda İndoneziyanın Təhsil və Mədəniyyət, Gənclər və İdman, eləcə də aidiyyəti digər nazirlikləri təmsil olunacaq.



Bu barədə avqustun 23-də İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan bəy Fənani festivala hazırlıqla bağlı keçirilən tədbirdə məlumat verib. Səfir festivalın sentyabrın 11-də Heydər Əliyev Sarayında, 13-15-də isə Fəvvarələr meydanında təşkil ediləcəyini bildirib.

Diplomat qeyd edib ki, əvvəlki illərdə olduğu kimi, budəfəki festival da İndoneziyanın tarixi, mədəniyyəti, milli mətbəxi, adət-ənənələri ilə bağlı ən gözəl nümunələri Azərbaycanda təqdim edəcək. Bu festival İndoneziya xalqının Azərbaycanda daha yaxından tanınmasına mühüm töhfə verəcək. Eyni zamanda İndoneziyadan iqtisadiyyat, turizm və digər sahələri təmsil edən iş adamları da Azərbaycana gələcəklər. Musiqi, incəsənət və ədəbiyyat sahəsinin tanınmış nümayəndələri də festivalda iştirak edəcəklər.

Belə tədbirlərin ölkələrimiz arasında münasibətlərin səviyyəsini də nümayiş etdirdiyini vurğulayan səfir festivala Azərbaycan Dillər Universiteti tələbələrinin də çıxış edəcəklərini deyib: "Azərbaycan Odlar yurdu, İndoneziya isə Odlar halqası ölkəsidir. İndoneziya vulkanlarla əhatə olunub. Bu bənzərlik xalqlarımızı bir-birinə bağlayır".

Diplomat onu da vurğulayıb ki, İndoneziya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. İndoneziya parlamentinin üzvləri ötən il xocalı soyqırımı ildönümü günlərində Bakıda səfərdə olarkən bunu bir daha bəyan edib.

Tədbirdə iştirak edən İndoneziya parlamentinin nümayəndəsi Həsən Hüseyn ölkəsi ilə Azərbaycan arasında siyasi və iqtisadi əməkdaşlıqdan bəhs edib. O deyib ki, dövlətlərarası münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Bu əməkdaşlıq elm, təhsil və mədəniyyət sahələrində də özünü göstərir.

Təqdimat mərasiminin sonunda İndoneziyanın milli musiqiləri səsləndirilib.

# Sabirabadda mədəniyyət işçilərinin növbəti seminarı

Avqustun 26-da Sabirabad rayon Mədəniyyət Mərkəzində mədəniyyət işçilərinin növbəti seminarı keçirilib.

Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Əhməd Ramazanov çıxış edərək ay ərzində görülmüş işlərdən, qarşıda duran vəzifələrdən söz açıb. Mədəniyyət mərkəzinin direktoru Mirtale Ağazadə mədəni-kütləvi tədbirlərin keçirilməsi barədə danışıb.

Mədəniyyət sahəsində uzunmüddətli səmərəli fəaliyyətləri və anadan olmalarının 65 illik yubileyləri münasibətilə A.İsgəndərov adına Xalq teatrının rejissoru Seyidməmməd Əliyev, Qəzli kənd Mədəniyyət evinin direktoru Mustafa Mustafayev və Həşimxanlı kənd Mədəniyyət evinin direktoru Beytulla Babayev Sabirabad Regional Mədəniyyət İdarəsinin, rayon Mədəniyyət Mərkəzinin fəxri fərmanları ilə təltif olunublar.

# Sumqayıtın 70 illiyi ilə əlaqədar konsert

Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə "28 May" Diyarşünaslıq evi Sumqayıt bulvarının konsert meydançasında şəhərin 70 illiyi ilə əlaqədar konsert proqramı təşkil edib.

Diyarşünaslıq evində fəaliyyət göstərən bədii özfəaliyyət kollektivlərinin, gənc müğənnilər Elnarə Abdullayeva, Dəniz Fərziyeva, Şamo Babayev, Mətanət İbrahimova, Vüqar Ulusoyun çıxışları, Sadiq Qarayevin başçılığı ilə rəqs qrupunun rəngarəng nömrələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

# Muğam ruhun qidasıdır...

Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanası rayon Heydər Əliyev Mərkəzində "Beynəlxalq Azərbaycan muğamı günü" ilə əlaqədar "Muğam ruhun qidasıdır" adlı tədbir keçirib.



Kitabxanadan bildirilib ki, tədbirdə kitabxananın əməkdaşı İradə Hüseynova əlamətdar gün barədə məlumat verib. Bildirib ki, muğam Şərqin ən qədim musiqi janrlarından biri olduğu üçün dünya musiqişünaslarının, sənətsevərlərin diqqətini daim cəlb edib. Bu sənət Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə xalqımızın mədəni ənənələrində və tarixində dərin köklərə malikdir.

Tədbirdə kitab sərgisi təşkil edilib, Xan Şuşinski, Qədir Rüstəmov və Səxavət Məmmədovun ifasında videolent nümayiş olunub.

Tədbir ədəbi-bədii hissə ilə davam edib. Gənc ifaçılar muğamlardan parçalar oxuyublar.

# "Moda və incəsənət" adlı silsilə ustad dərsləri

Sentyabrın 7-də "Artım" layihə məkanında gənc modelyer-rəssam Əhməd Nəbiyev "Moda və incəsənət" adlı silsilə ustad dərsləri keçəcək.

Məşğələlərdə moda sənayesi sahəsində həm nəzəri, həm də praktiki biliklərin çatdırılması nəzərdə tutulur.

Sentyabrın 27-dək davam edəcək məşğələlərdə moda sahəsinin xüsusiyyətləri, ixtisasların istiqamətləri və müxtəlifliyi haqqında məlumat veriləcək, dizayner ixtisası təhlil ediləcək. Bütün məşğələlərdə iştirak edənlərə sonda sertifikatlar təqdim olunacaq.

# Ölkəmiz Afinada Dünya Kitabxana və Məlumat Konqresində təmsil olunur

24-30 avqust tarixində Yunanıstanın paytaxtı Afinada illik Dünya Kitabxana və Məlumat Konqresi – Kitabxana Assosiasiyaları və İnstitutlarının Beynəlxalq Federasiyasının (İFLA) 85-ci Baş konfransı və Assambleya toplantısı keçirilir.

140 ölkədən nümayəndələrin qatıldığı konqresdə açıq sessiyalar, plenar iclaslar, seminarlar, kitabxana materiallarının, audiovizual avadanlıqların və kompüter sistemlərinin sərgiləri təşkil edilib.

"Kitabxanalar: dəyişiklik naminə dialoq" mövzusunda İFLA konfransının açılış mərasimində Yunanıstan Milli Kitabxanasının baş direktoru Filippos Tsimpoglu və digər rəsmilər iştirakçıları salamlayıblar. İFLA prezidenti Qloriya Perez-Salmeron açılış nitqi ilə çıxış edib. Tədbirdə, həmçinin İFLA baş katibi Gerald Leytner və Afina Universitetinin professoru Lukas Tsoukalis çıxış ediblər.



Ölkəmizi konqresdə Azərbaycan Milli Kitabxanasının direktor müavini Ədibə İsmayılova təmsil edir. Ədibə İsmayılova İFLA Biblioqrafiya bölməsinin Daimi komitəsinə 2019-2023-cü il müddəti üçün üzv seçilib. O, avqustun 24-də ilk Daimi komitə iclasında, konfrans ərəfəsində komitə tərəfindən təşkil edilmiş biblioqrafiya seminarında, digər tədbirlərdə iştirak edib. Direktor müavini, həmçinin İFLA çərçivəsində MDB kitabxana nümayəndələrinin illik regional görüşünə də qatılıb.

Ədibə İsmayılova Argentina Milli Kitabxanasının direktoru Elsa Barberlə görüşüb. Görüşdə gələcək əməkdaşlıq üçün Azərbaycan Milli Kitabxanası ilə Argentina Milli Kitabxanası arasında imzalanacaq anlaşma memorandumunun mövzusu müzakirə edilib. Xanım Elsa Barber Azərbaycan Milli Kitabxanasının rəhbərliyi adından sentyabrın 27-dən 29-dək Bakıda keçiriləcək "Milli kitabxanalar mobil informasiya mərkəzi kimi" adlı Beynəlxalq konfransa dəvət edilib.

# "Bir gün Qarabağda"

## Məcburi köçkünlər üçün muğam konserti təşkil edilib





*əvvəli səh. 1-də*

Təbii gözəllikləri və muğama sevgisi ilə Qarabağın can sirdaşı sayılan Şirvan torpağında təşkil olunan konsert xalqımızın mədəni-mənəvi dəyərlərinə, onların qorunmasına və zənginləşdirilməsinə məcburi köçkünlərin dəstəyini nümayiş etdirmək məqsədi daşıyıb.

Tədbirdə qonaqları Dövlət Komitəsinin gənc könüllüləri qarşılayıblar. Onlar üçün milli və hərbi üslubda özəl hazırlanmış geyimlər xüsusilə göz oxşayıb.

Konsertin təşkil edildiyi ərazidə milli adət-ənənələri və xüsusilə əsl kənd həyatını özündə əks etdirən etnoelementlərdən istifadə olunub. Ərazidə arabalar, arı yeşikləri, pətəklər, xüsusi zövqlə hazırlanmış saxsı və küp qablar, səhənglər, qədim samovarlar, təndir, bulaq, su quyusu və s. nümayiş olunub. Çobanın qoyun-quzunu yemləməsi, saman tayalarının hazırlanması isə kənd həyatını real şəkildə əks etdirib.

Konsert proqramı zamanı qeyd olunub ki, qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət tədbirləri bu gün daha geniş miqyasda davam etdirilir. Otuz ildir işğalçılıq siyasəti həyata keçirən Ermənistan xalqımızın Qarabağda əsrlər boyu yaratdığı mədəniyyət abidələrini məhv etməklə yanaşı, qeyri-maddi mədəni irsimizə də sahib çıxmağa cəhd göstərir.

Diqqətə çatdırılıb ki, artıq bir neçə ildir ki, 26 avqust "Beynəlxalq Azərbaycan muğamı günü" kimi qeyd olunur. Bu, xalqımızın milli sərvəti, dünya mədəniyyətinin şah əsəri sayılan muğama verilən bəşəri dəyərin ifadəsidir. Azərbaycan muğamının şöhrəti artıq bütün dünyaya səs salıb. Tarixin dərin qatlarından bizə gəlib çatan bu mədəni-mənəvi sərvətin qorunub saxlanmasında və daha da zənginləşdirilməsində, muğam sənətinin inkişafı üçün hər cür şərait yaradılmasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Onun təşəbbüsü ilə Azərbaycan muğamı UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına salınıb. Fondun fəaliyyətinin ən mühüm istiqaməti Qarabağ həqiqətlərinin dünyaya çatdırılması ilə bağlıdır.

Konsertdə Beynəlxalq Muğam Mərkəzinin ansamblının və solistlərinin ifasında səslənən muğamlarımız çoxsaylı tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Tədbir iştirakçıları xalqımızın mədəni-mənəvi dəyərlərindən olan muğamlarımızın işğaldan azad edilmiş yurd yerlərimizdə də səslənəcəyinə əminliklərini ifadə ediblər.

# Yurd yerlərimiz yolumuzu gözləyir

Biləsuvar Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində avqustun 23-də Cəbrayıl və Füzuli rayonlarının işğalının 26-cı ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib.





Tədbirlərdə hər iki rayonun tarixi, maddi-mənəvi irsi, Qarabağ uğrunda gedən döyüşlər, işğal altında qalan mədəniyyət obyektləri və s. mövzular ətrafında müzakirələr aparılıb.

Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyində 1993-cü ildə rayonda gedən döyüşlərdə şəhid olmuş Nurəddin Fətullayevin xatirəsi anılıb. Biləsuvar və Cəbrayılın mədəniyyət işçiləri rayon ərazisindəki şəhid qəbirlərini ziyarət ediblər.

Salyan, Cəbrayıl və Biləsuvarın mərkəzi kitabxanalarında kitab sərgiləri və dəyirmi masalar təşkil edilib.

Heydər Əliyev mərkəzlərində Qarabağın tarixi və mədəniyyətinə həsr olunmuş sənədli filmlər nümayiş etdirilib. Neftçala və Biləsuvarın rəsm qalereyalarında açıq havada gənc rəssamların əl işləri təqdim olunub.

***

Ağstafa Regional Mədəniyyət İdarəsi Cəbrayıl, Füzuli (23 avqust) və Qubadlı (31 avqust) rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasının 26-cı ildönümünə həsr olunmuş "Yurd yerlərimiz yolumuzu gözləyir" başlıqlı tədbir keçirib.

Tədbir iştirakçıları əvvəlcə Ağstafa rayon Şəhidlər xiyabanında torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olmuş soydaşlarımızın məzarlarını ziyarət ediblər. Tədbir iştirakçıları Ağstafa şəhərindəki "Miniatür Azərbaycan" parkına gələrək qan yaddaşımızın tarixini əks etdirən kitab sərgisinə baxıblar. MKS-nin əməkdaşlarının hazırladıqları ədəbi kompozisiya nümayiş olunub.

Sonra mədəniyyət müəssisələri əməkdaşlarının iştirakı ilə Heydər Əliyev Mərkəzində konfrans keçirilib. Tədbirdə əvvəlcə Virtual Qarabağ İKT Mərkəzinin istehsal etdiyi "Qarabağ – əcdadlarımızın mirası" filmi nümayiş etdirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov tədbirdə çıxış edərək Ermənistanın Azərbaycana silahlı təcavüzünün nəticələrindən söz açıb.

Tədbirdə Ermənistanın işğalçılıq siyasətinin dünya ictimaiyyətinə çatdırılmasında sosial şəbəkələr rolundan bəhs olunub, mədəniyyət işçilərinin bu işdə daha fəal olmasının vacibliyi vurğulanıb.

# "Mənim yay tətilim"

Xətai Sənət Mərkəzinin elan etdiyi "Mənim yay tətilim 2019" adlı respublika uşaq müsabiqəsi davam edir.

Müsabiqə Təhsil Nazirliyinin 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi, Azərbaycan Televiziya və Radio Verilişləri QSC, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə reallaşıb.

Mərkəzin direktoru Zahid Əvəzov bildirib ki, "Nəsimi ili" çərçivəsində gerçəkləşən müsabiqə məktəblilərin yay istirahətlərinin zövqlü keçməsi və tətil ərzində diqqətini çəkən hadisələri öz düşüncələri ilə tabloda əks etdirmək bacarıqlarını inkişaf etdirmək məqsədilə həyata keçirilir.

İştirak etmək üçün mərkəzin saytında (www.xsm.az) tədbirlər bölümündəki "Mənim yay tətilim 2019" müsabiqəsi ilə bağlı linkə daxil olub 1 və ya 2 əsərin fotosunu daxil etmək və anketi doldurmaq lazımdır. Qeydiyyat oktyabr ayının 15-dək aparılacaq.

Seçim iki yaş kateqoriyası (12 yaşa qədər, 12-17 yaş) üzrə keçirilir.

Müsabiqənin yekun sərgisi Xətai Sənət Mərkəzində açılacaq.

# Üzeyir işığına kimlər yığışacaq?

(I yazı)

Sentyabrın 18-dən 30-dək Bakı yenə də Üzeyir Hacıbəyli musiqisinin sehrinə düşəcək. Hələ sovetlər dövründə hər il 18 sentyabrda – böyük bəstəkarın doğum günündə musiqi ictimaiyyətinin nümayəndələri Üzeyir bəyin Fəxri xiyabandakı məzarını ziyarət edər, həmin günü indiki Bakı Musiqi Akademiyasının önündə elə onun adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edərdi. Akademik Opera və Balet Teatrı milli operamızın banisinin əsəri ilə yeni mövsümə başlardı. Maestro Niyazinin təşəbbüsü ilə başlamış bu tədbirlər 1995-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə 18 sentyabrın Milli Musiqi Günü (Üzeyir Musiqi Günü) elan edilməsi ilə bu günün anlamını, miqyas və əhəmiyyətini daha da böyütdü.

2009-cu ildə dahi musiqiçiyə həsr olunmuş beynəlxalq festivalın əsası qoyuldu. Bu il Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı 11-ci dəfə keçiriləcək. Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşəcək festivalda Türkiyə, ABŞ, İtaliya, Ukrayna, Rusiya, Çin, Özbəkistan, Belorus, Bolqarıstan, Gürcüstandan gəlmiş ifaçılar və solistlər paytaxtın müxtəlif səhnələrini Azərbaycan musiqiçiləri ilə paylaşacaqlar. 2019-cu ilin Üzeyir festivalı həm müddətinə, həm proqramın zənginliyinə, həm də qonaqlarının çoxluğuna görə əvvəlkilərdən fərqlənir. Bəs qonaqlarımız kimlərdir?



### ...18 sentyabr, festivalın ilk günü

Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olacaq. Orkestrin baş dirijoru, Xalq artisti Rauf Abdullayevin idarə edəcəyi konsertdə "Koroğlu" operasının uvertürası, Arif Məlikovun 6-cı simfoniyası və görkəmli fin bəstəkarı Yan Sibeliusun "Violin və orkestr üçün konsert"i ifa olunacaq. Solist beynəlxalq müsabiqələr laureatı Sergey Doqadindir.

**Sergey Doqadin** hələlik sonuncu mükafatını bu yay – P.İ.Çaykovski adına XVI Beynəlxalq müsabiqədə qalib gələrək qazanıb. Bu, 31 yaşlı tanınmış skripka ifaçısının sayca doqquzuncu böyük qələbəsidir. Hazırda Vyanada yaşayan musiqiçi gərgin qastrol qrafiki ilə çalışıb, Çinin "Liangzhu International Arts Academy" tədris ocağında dəvətli müəllim olaraq işləsə də, məqam düşdükdə yenə də görkəmli pedaqoq Boris Kuşnirdən dərs alır. Sergey Doqadin bu barədə öz müsahibələrində deyir: "Məncə, bu, normaldır. Çünki ömür boyu çalışmaq, təkmilləşmək gərəkdir. Boris İsaakoviç məşhur pedaqoqdur, onun dərsləri səhər saat 7-dən gecə saat birədək davam edir. Çox məşhur ifaçılar Boris İsaakoviçin yanına gəlir, ondan özəl dərs aldıqlarını nəinki gizlədirlər, hətta bununla fəxr edirlər. Bilirsiniz, pedaqoqla çalışmaq çox vacibdir: sənin əsərə, öz ifana münasibətin bir cürdür, onunku isə tamam fərqlidir. Üstəlik, tez-tez səhnədə çıxış edəndə qulağın "dolur".

İlk dəfə 2017-ci ildə 9-cu Rostropoviç festivalının açılışında, daha sonra 2018-ci il dekabrın 25-də Bakıda çıxış etmiş Sergey Doqadin bu dəfə Y.Sibeliusun ən yaxşı simfoniyalarından birini – "Violin ilə orkestr üçün konsert"ini bizim böyük simfonik orkestrin müşayiəti ilə ifa edəcək. Yeri gəlmişkən, Doqadin Bakıya bundan əvvəlki səfərlərində də maestro Rauf Abdullayevin idarəsi ilə çıxış etmişdi.

Sergey Doqadinin London filarmonik, Berlin simfonik, Münxen kamera orkestrləri, "Kremerata Baltica" orkestri kimi dünyanın məşhur kollektivləri ilə çıxış etdiyini, Y.Temirkanov, V.Gergiyev, V.Spivakov, M.Honekk, D.List, S.Sondeskis və digər görkəmli dirijorlar ilə əməkdaşlıq etdiyini nəzərə alsaq, sentyabrın 18-də onun çıxış etdiyi konsertə gələnlərin mükəmməl ifadan yayılan musiqidən zövq alacağını gözləməkdə haqlıyıq.

### Yevgeni Avramenko

Sentyabrın 20-də Kamera və orqan musiqisi zalında konsert proqramı ilə çıxış edəcək. Qonağımız orqan ifaçılarının I Rusiya müsabiqəsinin və beynəlxalq müsabiqənin qalibi, orqan sənətinə dair rus dilində böyük internet portalının yaradıcısı, orqan musiqisinin təbliği məqsədilə bir neçə uğurlu layihənin müəllifidir. Moskva Dövlət Konservatoriyasının məzunu olan Yevgeni Avramenko uzun illərdir ki, Svetloqorsk



şəhərində (Kaliningrad vilayəti) yaşayıb çalışır. S.V.Raxmaninov adına Musiqi Kollecində dərs deyir, şəhər kafedral kilsəsində orqan çalır, Rusiyanın şəhərlərində, Ukrayna, Belarus, Litva, Latviya, Qazaxıstan, Polşa, Almaniya və digər xarici ölkələrdə müntəzəm çıxış edir. İfaçının Üzeyir Hacıbəyli festivalında ilk dəfə Bakıda verəcəyi konsertin proqramına İ.S.Bax, D.Dianov, H.A.Ştamm, C.Talben-Boll kimi klassik və müasir bəstəkarlar ilə yanaşı, Azərbaycan bəstəkarı, Xalq artisti Arif Mirzəyevin də əsəri daxildir.



### Filipp Kopaçevski

Bu gənc rusiyalı virtuoz pianoçu isə sentyabrın 20-də Beynəlxalq Muğam Mərkəzində çıxış edəcək. Moskva Dövlət Filarmoniyasının "XXI əsrin ulduzları" layihəsinin davamlı iştirakçısı olan Filipp Kopaçevskinin 29 yaşı var. Bu günə kimi Böyük Britaniya, Almaniya, ABŞ, Niderland, Fransa, İtaliya, Yunanıstan, Polşa, İspaniya, Yaponiya və başqa ölkələrdə qastrol səfərlərində olub. Yaponiyada daha çox populyar olan F.Kopaçevskinin ifasında F.Şopenin fortepiano üçün əsərləri diskə yazılıb. Səkkiz beynəlxalq müsabiqənin laureatı olan pianoçunun Bakı konsertinin proqramında E.Qriq, F.Şopen, İ.Brams, Q.Ginzburq kimi ən müxtəlif üslublu fortepiano musiqisi müəlliflərin əsərləri yer alıb.

Yeri gəlmişkən, Üzeyir Hacıbəyli festivalında iştirak onun Bakıya ilk gəlişi deyil. Fitri musiqi istedadı hələ çox kiçik yaşlarında parlamış Filipp maestro Mstislav Rostropoviçin gənc istedadlara göstərdiyi qayğını hiss edib, Rostropoviç Fondunun təqaüdçüsü olub. Bir neçə il əvvəl isə ənənəvi Rostropoviç festivalı çərçivəsində paytaxtımızda çıxış edib.

### Festivala ulduz tamaşası hədiyyəsi - "Bohema"

Festivalın 21 sentyabr tarixinin proqramı da qonaq-qaralıdır. Həmin axşam Akademik Opera və Balet Teatrında italyan opera sənətinin incisi sayılacaq əsər – C.Puççininin "Bohema"sı oynanılacaq. Tamaşadakı iki əsas partiyanın ifaçısı artıq Bakı klassik musiqisevərlərinə yaxşı tanış olan Özbəkistanın Xalq artisti Ramiz Usmanov (Rudolf) və Belarusun Əməkdar artisti Vladimir Qromov (Marsel) olacaq. Onlarla yanaşı, tamaşada əsas qadın qəhrəmanların partiyalarını bizim teatrın gözəl sopranoları – əməkdar artistlər Afaq Abbasova və İnarə Babayeva oxuyacaqlar. Lakin tamaşanın dəvətli iştirakçılarının sayı bitmir. Orkestr pultu arxasında italiyalı dirijor Lorenso Taziyeri dayanacaq.

### Lorenso Taziyerini tanıyaq...

Altı yaşından musiqiyə həvəs göstərmiş Lorenso Taziyeri Nikolo Paqanini adına konservatoriyada əvvəlcə violin, daha sonra fortepiano üzrə təhsil alıb. Lakin getdikcə operaya marağı artan Lorenso dirijor sənəti üzrə ixtisaslaşmağa üstünlük verib. Çox gənc ikən 2005-ci ildə öz simfonik orkestrini və xorunu yaradıb. Milli və beynəlxalq musiqi festivallarında çıxış edən kollektivin repertuarı barokkodan müasir dövrümüzədək dəyişir. 2010-cu ildən etibarən Avropa səhnələrində opera tamaşalarına dirijorluq edir, fərqli opera festivallarında çıxış edir.

2013-cü ildə "Assosiasiya Alleqro" hərəkatını təsis edərək, bədii rəhbər kimi "Operàpolis" musiqi, təhsil və sosial layihəsini uğurla həyata keçirir. Bir zamanlar musiqi istedadına, daha sonralar isə təşkilatçılıq və idarəçilik qabiliyyətinə görə "musiqi vunderkindi" təxəllüsünü qazanmış 34 yaşlı maestro Lorenso Taziyerinin idarəsi ilə italyan operasına baxmaq maraqlı olar.

### Dirijor demişkən...



Həmin axşam daha bir dirijor qonağımız Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsinə çıxacaq. Rusiyanın Xalq artisti, V.V.Andreyev adına Dövlət Akademik Rus Orkestrinin bədii rəhbəri və baş dirijoru Dmitri Xoxlov Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrini idarə edəcək. Proqrama "Koroğlu" operasının uvertürası, Arif Məlikovun, Qara Qarayevin, rus bəstəkarları M.Musoroqski, M.Qlinka, P.Çaykovskinin xalq çalğı alətləri orkestri üçün işlənmiş əsərləri daxildir.

N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Simfonik Orkestrinin professoru olan Dmitri Xoxlov istər rəhbərlik etdiyi orkestr ilə, istərsə də dəvətli dirijor kimi tez-tez xarici ölkələrdə çıxış edir. Bir zamanlar hətta Qazaxıstan və Monqolustan orkestrlərinin baş dirijoru olmuş, dünya, xüsusən də keçmiş sovet respublikalarının milli bəstəkarlıq məktəbləri ənənələrinə bələdliyi ilə tanınan dirijorun Azərbaycanın xalq çalğı alətləri orkestrinin konsertinin də maraqlı olacağını gözləməyə dəyər.



### 22 sentyabr - daha iki pianoçu qonağımızdır

Sentyabrın 22-də İtaliyanı təmsil edən **Aleksandr Hacıyev** Beynəlxalq Muğam Mərkəzində (saat 17.00) solo konsert verəcək. Soyadı bizə doğma gələn gənc musiqiçi əslən Serbiyadandır. Vaxtilə Moskva Konservatoriyasının nəzdindəki Mərkəzi Musiqi Məktəbində dərs demiş, qarışıq zamanlarda Serbiyadan İtaliyaya mühacirət etmiş, fortepiano üzrə görkəmli pedaqoq Siyavuş Hacıyevin oğludur. Aleksandr 1994-cü ildə İtaliyada dünyaya gəlib. Erkən yaşdan fortepiano qarşısına keçən gənc ifaçının ilk müəllimi atası olub. 10 yaşında ilk dəfə orkestrlə çıxış edən Aleksandr 30-cu "Premio Venezia" müsabiqəsində qalib gələndən sonra tanınmağa başlayıb. 2015-ci ildə Hamamatsu adına pianoçuların IX Beynəlxalq müsabiqəsində I mükafatı və tamaşaçı rəğbəti prizini qazanmış musiqiçi haqqında münsiflər heyətinin prezidenti Akiko Ebi demişdi: "Onun gücü interpretasiya bacarığındadır. Onun yozumları ənənəyə əsaslansa da, ənənəvi çərçivələrdən xeyli kənara çıxır".

Aleksandr Hacıyev konsertdə L.V.Bethovenin, F.Listin və S.Prokofyevin əsərlərini səsləndirəcək.

***

Həmin gün saat 19-da isə Heydər Əliyev Sarayında Xalq artisti Rauf Abdullayevin idarəsində Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə daha bir virtuoz pianoçu – beynəlxalq müsabiqələr laureatı **Xatiya Buniatişvili** çıxış edəcək.

Xatiya Buniatişvili Gürcüstanın Batumi şəhərində (1987) dünyaya gəlib. Tbilisi Dövlət Konservatoriyasını bitirib. Bir neçə beynəlxalq müsabiqədə qalib gəlib, 2010-cu ildə "Borletti-Buitoni Trust Award" mükafatının laureatı olub. Xatiyanın böyük bacısı Qvansa Buniatişvili də tanınmış pianoçudur. Bəzən bacılar birlikdə konsert verir, fortepiano dueti olaraq da çıxış edirlər.

Hazırda Parisdə yaşayan Xatiya Buniatişvilinin Bakıdakı ilk konsertində Azərbaycan bəstəkarları Fikrət Əmirov, Niyazi və Elmira Nəzirovanın əsərləri ifa olunacaq.

**Gülcahan MİRMƏMMƏD**

# Ukraynada müğənni soydaşlarımızın konsertləri

## Qurban Abbasov "Şərəf" ordeni ilə təltif edilib





Kiyevdəki Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri, Ukraynanın Xalq artisti Qurban Abbasov bu ölkənin müstəqilliyinin 28-ci ildönümü münasibətilə keçirilən "Etnik çələngi" adlı festivalda çıxış edib. Festivalda Azərbaycanın milli musiqisi də təbliğ olunub. Soydaşımız Qurban Abbasov və müğənni Natalya Kudryaşovanın rəngarəng çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Azərbaycan bəstəkarlarının mahnılarının Ukrayna dilində səsləndirilməsi, Azərbaycanın milli rəqs nömrələri festivala əlavə rəng qatıb. Festival Ukraynada yaşayan digər etnik xalqların konserti ilə davam edib.

Yeri gəlmişkən, Ukraynanın Xalq artisti Qurban Abbasov bu günlərdə "Şərəf" ordeni ilə təltif edilib. Kiyev Şəhər Administrasiyasının rəhbəri Vitali Kliçko soydaşımızı paytaxtın beynəlxalq aləmdə tanıdılmasında, mədəni, sosial-iqtisadi inkişafında göstərdiyi xidmətlərinə görə bu medala layiq görüb.

Q.Abbasov bildirib ki, ona verilən qiymət, bütövlükdə Azərbaycan xalqına göstərilən diqqətin bariz nümunəsidir. "Azərbaycan ilə Ukrayna arasında mədəni əməkdaşlığın inkişafı üçün birgə layihələrimiz davam edəcək", - deyə o əlavə edib.

***

Ukraynanın Xarkov şəhərinin yaradılmasının 365-ci ildönümü münasibətilə təşkil olunan konsertdə də Azərbaycan mədəniyyəti təbliğ edilib.

Tədbirdə soydaşımız – "O səs Ukrayna" yarışının iştirakçısı, müğənni Vaqif Nağıyev çıxış edib. Onun ifasında Azərbaycan və Ukraynanın estrada mahnıları səsləndirilib. Onun ifası alqışlarla qarşılanıb.

Müğənni göstərdikləri dəstəyə görə şəhər meriyasına və Azərbaycanın Ukraynadakı səfirliyinə təşəkkürünü bildirib.

Vaqif Nağıyev oktyabr-dekabr aylarında Ukraynanın Kiyev, Xarkov, Odessa və Dnepr şəhərlərində solo konsert proqramları ilə çıxış edəcəyini də deyib. Onun sözlərinə görə, konsertdə Azərbaycan, Ukrayna və Avropanın estrada musiqi əsərlərinə, o cümlədən bəstəkar mahnılarına yer veriləcək.

V.Nağıyev həmçinin vurğulayıb ki, soydaşlarımızdan ibarət qrupun yaradılması istiqamətində də işlər aparılır. Ona görə də istedadlı musiqiçilərin bir arada olması üçün müsabiqə elan edilib.

# "Sehrli Bakı" layihəsi davam edir

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə gerçəkləşən "Sehrli Bakı" layihəsi çərçivəsində Fəvvarələr meydanında ötən həftəsonu iki gün ərzində növbəti konsertlər təşkil edilib.




Konsertlərdə rəqqasə Səbinə İsmayılova "Ərəb", "Qaraçı" rəqsləri ilə tamaşaçıların zövqünü oxşayıb.

Ayaz Babayev, Aygül Bayramova, Tural Məmmədov, Gülnar Dadaşova, Xəyal Hüseyn və başqa müğənnilərin, "Stop" qrupunun ifa etdiyi mahnılar alqışlarla qarşılanıb.

Tamaşaçıların həftəsonu istirahətini mənalı təşkil etmək, onların musiqi zövqünü peşəkar musiqi ilə zənginləşdirmək məqsədi daşıyan "Sehrli Bakı" layihəsi çərçivəsində konsertlər hər həftəsonu sentyabrın 30-dək davam edəcək.

# Xarkov merinə İrəvan xalçalarına dair kitab hədiyyə olunub

Ukraynanın Xarkov şəhərinin yaradılmasının 365-ci ildönümü münasibətilə şəhər meri tərəfindən rəsmi qəbul keçirilib. Tədbirdə Azərbaycanın Ukraynadakı səfirliyinin əməkdaşları da iştirak ediblər.

Mer Gennadi Kernes çıxışında qeyd edib ki, Xarkov 76 il öncə alman faşistlərindən azad edildikdən sonra inkişaf edib. Hazırda da şəhərin daha da inkişafı üçün layihələr həyata keçirilir. Bu işdə beynəlxalq tərəfdaşlar da öz töhfəsini verməkdədir. Mer bildirib ki, Xarkov şəhərinin beynəlxalq əlaqələri genişlənir, qardaş şəhərlərin sayı artmaqdadır.

Tədbirdə Azərbaycan adından merə İrəvan xanlığına aid olan xalçalara dair kitab təqdim edilib. Mer göstərilən diqqətə görə, Azərbaycanın Ukraynadakı səfirliyinə təşəkkürünü bildirib.

№59-60 (1645)
28 avqust 2019
www.medeniyyet.az

# Özbəkistanda "Mədəniyyət.AZ" jurnalının təqdimatı keçirilib

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) "Mədəniyyət.AZ" jurnalının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə dərc olunan xüsusi buraxılışının təqdimatı olub. Mərkəzin foyesində jurnalın müxtəlif buraxılışları və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə fotosərgi nümayiş olunub.



AMM-in direktoru Samir Abbasov çıxış edərək ötən ilin Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edildiyini, il ərzində bir sıra ölkələrdə, o cümlədən Özbəkistanın paytaxtı Daşkənddə çoxsaylı tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

"Mədəniyyət.AZ" jurnalının baş redaktoru, Əməkdar mədəniyyət işçisi Zöhrə Əliyeva nəşrin xüsusi buraxılışı barədə məlumat verib.

Özbək alim-tərcüməçi Babaxan Şərif, Özbəkistanda yaşayan azərbaycanlı alim, Beynəlxalq Akademiyanın həqiqi üzvü Almaz Məcidova, filologiya elmləri üzrə fəlsəfə doktoru Gülnaz Səttarova, Özbəkistan Yazıçılar Birliyinin bölmə müdiri Risalət Muradova çıxış edərək Xalq Cümhuriyyətinin Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsi olduğunu, bu dövlətin varisi olan Azərbaycan Respublikasının dünya dövlətləri arasında layiqli yerini tutduğunu vurğulayıb, Azərbaycan-Özbəkistan əlaqələrindən bəhs ediblər.

Sonda Azərbaycan Xalq Cümhuriyyəti irsinin təbliği və Özbəkistan ictimaiyyətinə çatdırılmasında xidməti olan bir sıra şəxslərə AMM-in fəxri diplomları təqdim edilib.

# "Khaleej Times" nəşri Milli Xalça Muzeyindən yazır

əvvəli səh. 1-də

Müəllif yazır: "Azərbaycanlıların arasında belə bir qədim məsəl var: "Xalçamı sərdiyim yer mənim evimdir". Xəzər sahillərində neft bumu və yüksəliş mərhələsi yaşayan çağdaş dövr başlamazdan çox illər öncə bu ölkə xalçaçılıq sənəti ilə tanınırdı. Əfsanəyə görə, çox zaman elə ailə üzvü olan qadının toxuduğu xalça onun gündəlik həyatında mühüm rol oynayaraq və Azərbaycan insanının estetik qavrayışını formalaşdırmağa kömək edərək, insanı bu dünyaya gələndən gedənədək müşayiət edir".

Müəllif Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikovanın sözlərini xatırladaraq deyir ki, Azərbaycan mədəniyyətində xalça evin bəzək elementi, yaxud mərasimlərin bir hissəsi olmaqdan daha böyük anlam ifadə edir. Xalça daha çox milli xarakterin nadirliyini, xeyli tarixi dövr və üslubların qovuşduğu bədii zövqü əks etdirir.

Yazı müəllif, paytaxtımızı "Xəzər sahilindəki Paris" adlandıranlara haqq verərək, dünya şöhrətli memar Zaha Hadidin layihəsi əsasında tikilmiş Heydər Əliyev Mərkəzi kimi, Xalça Muzeyinin binasını da Bakının bəzəyi kimi səciyyələndirir, onu Şərq nağıllarındakı ən qəribə atributa – uçan xalçaya bənzədir.

Qeyd edilir ki, çoxəsrlik xalçaçılıq ənənələrini qoruyub yaşatmaq üçün 1967-ci ildə yaradılmış Azərbaycan Milli Xalça Muzeyində minlərlə ən müxtəlif xalça məmulatı, tikmələr, milli qadın və




kişi geyimləri, zinət əşyaları qorunur. Azərbaycanın hər bölgəsinin özünəməxsus xalça çeşnilərinin, Bakı, Şirvan, Təbriz, Quba, Gəncə və Qazaxda toxunan xalçaların yüzdən artıq naxış kompozisiyasının olduğu, onların bir-birini təkrar etmədiyi vurğulanır.

Müəllif yazır ki, istənilən azərbaycanlı ailəsinin mənzilində sadəcə, döşəməyə sərilmiş xalça ilə yanaşı, sənət əsəri kimi divardan asılmış xalça da görmək olar. Xalça məmulatlarından pərdə, örtük, ya da süfrə kimi istifadə olunur. Həndəsi naxışları ilə məşhur xalça çeşnilərinin təbiətdən, yerli folklordan, mədəniyyət və ədəbiyyatdan ilhamlanaraq yaradıldığı nəzərə çatdırılır: "Məsələn, XVII əsrin sonlarına aid "əjdahalı" Qarabağ xalçası qeyri-adi "həyat ağacı" motivi ilə seçilir. "Xətai" kompozisiyalı xalça qrupuna aid edilən bu xalçalar xarici ölkələrdə çox məşhur olduğundan Səfəvilər sülaləsi dövründə Avropaya daşındığı üçün ölkədə, demək olar ki, qalmayıb".

Əjdahanı şər qüvvənin rəmzi kimi tanıdan qədim mifik baxışlardan fərqli olaraq, bu regionda həm də səma, qəhrəmanlıq və məhsuldarlıq assosiasiyası doğurduğunu xatırladan müəllif yenidən muzeyin direktoruna müraciət edir: "Şirin Məlikova Abşeron rəmzləri salınmış zili xalçalarının qədim məbədlərin qalıqları olan, torpağın od püskürdüyü, güclü küləyinsə Xəzər dənizinin sularını coşdurduğu, yəni kainatın dörd ünsürünün qovuşduğu "müqəddəs torpaq" kimi vəsf etdiyini deyir: "Bu xalçada od rəmzi olan tovuzquşu təsvirini görmək olar".

Müəllif muzey ekspozisiyasında çox bəyəndiyi bir xalçadan da bəhs edir. Leyli və Məcnunun eşq hekayətinə həsr olunmuş xalçada həyatın qaynadığı küçə həyatının fonunda Leylinin yolunu gözlədiyi aşiq Məcnun qolları qandallı təsvir olunub.

Azərbaycanlı qız gəlin köçərkən cehizinin üstündə özünün toxuduğu xalçanı da ər evinə aparırsa, ər evində onun əlindən çıxmış xalça bütün əmlakdan daha dəyərli hesab edilir.

Məqalə Milli Xalça Muzeyinin direktorunun sözləri ilə bitir: "Azərbaycan xalçaları regionun mədəni-coğrafi fonu, yunun keyfiyyəti, xovun uzunluğu və həmçinin müxtəlif təbii boyaqlardan asılı olan naxışları ilə seçilir. Bizim xalçalar Azərbaycan tarixinin bütün mərhələlərini, onun folklorunu, ədəbiyyatını, həmin ərazidə yaşayan xalqlarla bağlı inancları əks etdirir. Xalça bizim bütün tariximizin salnaməsi, onun mənəvi təcəssümünün məğzidir".

**Hazırladı: GÜLCAHAN**

# Məcburi köçkün qadınlar üçün xalçaçılıq kursları

"Azərbaycan xalçaçıları" İctimai Birliyi Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə "Qarabağdan olan məcburi köçkün qadınlara xalçaçılıq kurslarının təşkili" adlı layihə həyata keçirir.

Layihənin əsas məqsədi milli mədəni irsimizin, məişətimizin ayrılmaz hissəsi olan Azərbaycan xalçası və onunla bağlı ənənələri yaşatmaq, unudulmaqda olan texnologiyaları bərpa etmək və xalçaçılıq sənətinə marağı genişləndirməkdir.

Yeni layihə 2017-ci ildə reallaşdırılan "Qarabağda xalçaçılığın müasir inkişaf potensialı" layihəsinin davamıdır.

Ötən layihə çərçivəsində Ağdam, Füzuli, Tərtər, Cəbrayıl rayonlarında yaşayan və Bakıda məcburi köçkün həyatı sürən xalçaçılar arasında sorğular keçirərək onların həyatı və yaradıcılığını əks etdirən elektron məlumat bankı yaradılıb. Layihə çərçivəsində təşkil olunan kursda Bakı şəhərində məskunlaşan məcburi köçkünlər arasında Qarabağ xalça ənənələrinə bağlılıq yaratmaq, onlarda xalq tətbiqi sənətinin bu növünə maraq oyatmaq, onların xalça ustaları və rəssamlarla təmas qurmasına şərait yaratmaqla sənətkarlığı inkişaf etdirmək nəzərdə tutulub.

Layihənin artıq yekunlaşmış birinci mərhələsində xalçaçı qadınlarla Qarabağ xalçaçılıq məktəbinin ənənəvi xovsuz xalçaları üzrə iki aylıq təlim keçirilib. Xalça ustaları və rəssamlar arasında ünsiyyətin qurulması məqsədilə "NUR Art House" mədəniyyət mərkəzində seminar və işgüzar görüş təşkil edilib. Uzun illərdir bu sənətlə məşğul olan xalçaçı Gülnarə Əliyeva təlim iştirakçılarına unudulmaqda olan Qarabağın "Şəddə" və "Dəstərxan" xovsuz xalçalarının toxuma üsullarını, rəng seçimini və s. öyrədib. Xalçanın toxunuşu, ilmələrin sıxlığı, sapların istifadəsi, rəngləri və s. haqqında suallar dolğunluqla cavablandırılıb.



Bakıda məskunlaşmış 10 məcburi köçkün xanımın cəlb olunduğu layihə, eyni zamanda bu insanlara yeni peşə əldə etmək, arzusunda olduqları xalçaları yaratmaq və sənəti yaşatmaq üçün ilk addımlar atmaq imkanı verir. Layihənin ikinci mərhələsində iki ənənəvi Qarabağ xovsuz xalçası – "Şəddə" və "Dəstərxan" toxunacaq, unudulmuş texnologiyalar bərpa ediləcək və müasir xalça məmulatları hazırlanacaq. Sonda "NUR Art House" qalereyasında layihə iştirakçılarının əl işlərindən ibarət sərgi açılacaq.

# "Mədəni müxtəliflik dövlətin milli zənginliyidir"

## Azərbaycan, rus və ingilis dillərində elektron toplu hazırlanır

Azərbaycan ta qədimdən müxtəlif dinlərə, mədəniyyətlərə məxsus, dil və etnik fərqliliklərə malik xalqların yaşadığı məkan olub. Çoxmədəniyyətlilik bu gün də Azərbaycanın zənginliyi, milli sərvətidir.

Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra milli mədəni müxtəlifliyin təşviq edilməsi dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. "Azərbaycan yüz illərlə bu torpaqda yaşayan bütün insanların vətəni olub, bundan sonra da vətəni olmalıdır" – ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda respublika rəhbərliyinə qayıdarkən bəyan etdiyi sözlər sonrakı illərdə həmin siyasətin əsas tezislərindən biri oldu. Prezident Heydər Əliyev hər zaman bir fikri xüsusi vurğulayırdı ki, çoxmillətli, çoxmədəniyyətli ölkə olmağımız bizim sərvətimizdir və bunu qoruyub saxlamalı, dünyaya layiqincə təqdim etməliyik.

Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həyata keçirilən tədbirlər ölkəmizin dünya arenasında nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Azərbaycanda yaşayan milli azlıqların mədəniyyət və incəsənətinin, dilinin qorunub saxlanılması üçün məqsədyönlü iş aparılır. Mədəniyyət Nazirliyi tərəfindən "Azərbaycan – doğma diyar" devizi altında azsaylı xalqların ənənəvi incəsənət festivalı keçirilir. Digər qurumlar da müvafiq işlər görürlər. O cümlədən QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə həyata keçirilən layihələrin bu istiqamətdə mühüm rolu var.

Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə "Effektiv Təşəbbüslər Mərkəzi" İctimai Birliyi tərəfindən icrasına başlanılan layihə də ölkəmizdəki multikultural mühitin, milli azlıqların mədəni irsinin Azərbaycan dövləti tərəfindən qorunub yaşadıldığını dünyaya tanıtmaq, bu istiqamətdə görülən işləri təbliğ etmək məqsədi daşıyır. Layihə üzrə Azərbaycan, rus və ingilis dillərində "Mədəni müxtəliflik dövlətin milli zənginliyidir" adlı elektron toplu hazırlanacaq və təşkilatın saytında (azerbaycanli.org) yerləşdiriləcək. Nəticədə bu mövzuda normativ-hüquqi sənədlər, tədqiqat materialları və məqalələr, həyata keçirilən tədbir və layihələrlə bağlı informasiya bazası toplu şəklində internet məkanda istifadəyə veriləcək.

Qeyd edək ki, ictimai birlik 2009-cu ildən QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə reallaşdırdığı "Milli eyniyyətdən qlobal dünyaya pəncərə" internet layihəsini həyata keçirir. Ötən müddətdə bu çərçivədə müxtəlif elektron resurslar, o cümlədən Azərbaycan və rus dillərində "Qarabağ tarixi", "Qarabağ ədəbiyyatı" elektron xronoqrafları yaradılaraq istifadəyə verilib.

# Real həyatdan kino ekranına



Kino XIX əsrin ən maraqlı kəşflərindən biridir. Bir əsrdən çoxdur dünyada müxtəlif mövzularda filmlər çəkilir, insanları saatlarla ekran qarşısında dayanmağa vadar edir.

Bəzi filmlər var ki, ekranlara çıxmasından neçə on illər keçməsinə baxmayaraq, tamaşaçılar tərəfindən hələ də sevilir, maraqlı epizodları tez-tez xatırlanır. Real həyat hadisələrindən bəhs edən filmlər həmişə tamaşaçıların maraq dairəsində olub. Yaşanan hekayələrdən ilham alan rejissorların çəkdiyi bu filmlər uzun müddət yaddaşlardan silinmir. Bu yazıda da süjeti həyatdan alınan ən yaxşı filmlərə nəzər yetirəcəyik.

İlk olaraq "Ruanda hoteli" filmindən başlayaq. 2004-cü ildə çəkilən ekran əsəri 1994-cü ildə Ruandada Hutu və Tutsi etnik qrupları arasında yaşanan və minlərlə insanın ölümü ilə nəticələnən vətəndaş müharibəsindən bəhs edir. Don Çidl, Xoakin Feniks və Nik Nolton kimi təcrübəli aktyorların oynadığı filmin rejissoru Teri Corcdur.

Kanada, Böyük Britaniya, İtaliya və Cənubi Afrika Respublikasının birgə istehsalı olan filmin baş qəhrəmanı Paul Rusesabagine qəsəbənin ən bahalı hotelinin rəhbəridir. İrqçiliyə nifrət edən Paulun həyat yoldaşı da Tutsilərdəndir. Paul həm öz ailəsini, həm də günahsız insanları qorumaq üçün nə isə etməlidir.

"Xoşbəxtlik axtarışında" (2006) filmi həyat yoldaşı tərəfindən tərk edilən və oğlu ilə mübarizə aparan Kris Qardnerin həyatından bəhs edir. Qabriele Muççinonun çəkdiyi filmdə baş rolları məşhur amerikalı aktyor Vill Smit və oğlu Ceyden Smit canlandırır.

Dünyanın xatırlamaq istəmədiyi fəlakətlərdən biri olan "Titanik" faciəsi 1997-ci ildə Ceyms Kameron tərəfindən ekranlaşdırılıb. Rejissor aysberqə çırpılıb parçalanan gəmidə yaşananları iki gəncin sevgisi fonunda təqdim edib. Filmdə əsas rolları Leonardo di Kaprio və Keyt Uinslet canlandırıb. Onu da qeyd edək ki, "Titanik" filmi 2,19 milyard dollarla dünyada ən çox qazanc gətirən ikinci film hesab olunur.

Roman Polanskinin üç nominasiyada "Oskar"a layiq görülən "Pianoçu" (2006) filmi II Dünya müharibəsi zamanı yaşanan real həyat dramından bəhs edir.



Məşhur polşalı pianoçu Vladislav Şpilmanın xatirələrini yazdığı eyniadlı kitab əsasında ekranlaşdırılan film Şpilmanın Varşavanın kənar məhəllələrində apardığı həyat mübarizəsindən bəhs edir. Baş rolu ifa edən Edrian Broudi "Ən yaxşı aktyor" nominasiyasında "Oskar" mükafatı qazanıb.

"Erin Brokoviç" (2000) filmi hüquq təhsili olmayan, amma çox önəmli məhkəmə proseslərində haqlı tərəfin qalib gəlməsinə nail olan sadə və mübariz qadından bəhs edir. Stiven Sodeberqin rejissoru olduğu ekran işində Brokoviç rolunu Culiya Roberts canlandırıb. C.Roberts bu roluna görə "Ən yaxşı aktrisa" nominasiyasında "Oskar"a layiq görülüb.

Ron Hovardın 1995-ci ildə ekranlara çıxan "Apollon 13" filmi Amerika tarixinin ən böyük qalmaqallarından biri olan "Apollon 13" kosmik layihəsindən bəhs edir. Filmdə 1970-ci ildə Aya göndərilən və partlayan kosmik gəmi heyətinin sağ qalmasından və dünyaya qayıtmasından danışılır. Ekran əsərində Tom Henks, Bill Pekston və Kevin Beykon kimi tanınmış aktyorlar rol alıb.

"Şindlerin siyahısı" (1993) filmi (rejissor Stiven Spilberq) də müharibə mövzusundadır. Oskar Şindler adlı alman iş adamının II Dünya müharibəsi zamanı Polşada qurduğu fabrikdə yəhudiləri işlətməsi və bu yolla 1100 yəhudinin həyatını xilas etməsi filmin əsas süjet xəttini təşkil edir.

"Bacımın hekayəsi" (2009) kinolenti Ceremi Levenin eyniadlı romanı əsasında ekranlaşdırılıb. Film Ticerald ailəsinin leykozla mübarizəsindən bəhs edir. Sara və Brayn Ticerald qızları Keytin leykoz xəstəliyindən əziyyət çəkdiyini öyrənir. Övladlarının bir neçə il ömrü qaldığını öyrənən valideynlər Keytə donor olması üçün daha bir övlad dünyaya gətirirlər. İllər sonra Anna ailəsinin məhz donor olmaq üçün onu dünyaya gətirdiyini öyrənəndə ana və atasını məhkəməyə verir. Keyt isə hələ də ölümlə mübarizə aparır. Rejissor Nik Kassavetesin filmində əsas rolları



Kameron Diaz, Abiqayl Breslin və Alek Boldvin canlandırıb.

"Azadlıq yolu" (2007) filmi yaxşı bir universitetdən məzun olan, həmçinin uğurlu bir atlet kimi tanınan Xristoferin taleyinə işıq salır. O, universitetdən məzun olan vaxt verilən dəvətdə ailəsinə istədiyi həyatın bu olmadığını söyləyir. Bütün sərvətini xeyriyyə cəmiyyətinə bağışlayıb sahib olduğu hər şeyi evində buraxaraq fərqli həyata doğru uzun bir yolçuluğa çıxır. Alyaskanın tənha meşələrində sona çatan bu səyahət zamanı və sonra Xristofer həyatını büsbütün dəyişdirəcək bəzi insanlarla tanış olur. Bununla da yaşamın mənasını və ölümün qaçılmaz olduğunu anlayır. Rejissoru Sean Penn olan filmdə rolları Emile Hirsch, Marsia Hardn, Vilyam Hurt və Cena Malone ifa edirlər.

**Nurəddin MƏMMƏDLİ**

# Hafizələrdə iz salan kiçik rollar ifaçısı



*İşıqlı düşüncəyə malik insanlar mütləq yaradıcı olurlar. Onların fərdi təfəkkürü, həyata fərqli baxışı ətrafda baş verən hadisələri müşahidədən əlavə, müqayisələndirməsinə səbəb olur, daxili təlatümünə, hisslərinə əsasən isə daha dərin və dəqiq təhlil etməsinə, cavablandırmasına imkan verir. Belə insanlar çox vaxt nəticə etibarilə həyat və yaşam üçün vacib olan ümdə peşələri özündə əks etdirən aktyorluq məsləyini seçirlər, bir ömürdə min ömür yaşayırlar. İstedadlı aktyor Fazil Salayev də həyat fəlsəfəsini, xarakterləri sevib-seçdiyi məsləyində tədqiqat obyektinə çevirən sənətkarlarımızdandır.*

Onun haqqında “az yazılıb, az danışılıb” sözləri işlənsə də, yazılan məqalələr, hazırlanan verilişlər istedad sahibinin yaradıcılığının gənc nəsillərin də diqqətində olduğundan xəbər verir. Bəs, görəsən, teatr fəaliyyətini yarımçıq qoyan, kinoda epizod rollar yaradan aktyorun hansı sənət taktikası sənətsevərləri düşündürür, yaradıcılığını diqqət mərkəzində saxlayır? Bu kimi suallar bənzərsiz yaradıcılıq nümayiş etdirən aktyorun bioqrafiyasına bir qədər ətraflı nəzər salmağımıza əsas verir.

### Tragikomik aktyor

Fazil Salayev Azərbaycan kinosunda yumor və satiranın rəngarəng boyaları ilə işləyən, vəziyyətdən yaranan, gülüşdoğuran situasiyaları komediya səviyyəsində tamaşaçıya çatdıran, bununla da komik janrın idrak gücünü, ciddiliyini təsdiqləyən aktyorlarımızdandır. Onun “Azərbaycanfilm” kinostudiyasında istehsal olunan 30-a yaxın (“Mozalan” satirik kinojurnalındakı süjetlər daxil olmaqla) filmdə yaratdığı maraqlı və yaddaqalan rolları bunu bir daha sübut edir.

Geniş yaradıcılıq imkanlarına, maraqlı səhnə plastikasına malik aktyorun sənət yönümü tragikomik istiqamətdə inkişaf edib. Bəlkə də bu seçim obrazların təfsirində, aktyorun rola olan münasibətindən, biixtiyar yaranıb. Personajların xarakterinin dolğun və yaşarı təqdimatına görə də orijinal və yaddaqalımlı alınıb. Xarakterik simaya malik aktyorun teatr fəaliyyətindəki zəruri xüsusiyyətlərini görən kinorejissor Həsən Seyidbəyli onu 1963-cü ildə quruluş verdiyi “Möcüzələr adası” filminə dəvət edib. Fazil Salayevin kino obrazlarının ardıcıllığı da bu filmdən sonra başlayıb.



### Debüt rolun uğuru

Onun kiçikplanlı rollarının hafizələrə yazılmasının əsas səbəblərindən biri də, rolun daxili mənini duyub göstərməsindən əlavə, tərəf-müqabilinin ifasını həssaslıqla hiss edib, onun davranış və xüsusiyyətinə cavab olaraq oyun nümayiş etdirməsində idi. Nəticədə rola və film atmosferinə uyğun düzgün mizanladığı personajlar inandırıcı alınır, kadrlardakı düşünülmüş həyat hekayələri real təsir bağışlayırdı.

Aktyorun “Möcüzələr adası”nda rola uyğun təqdim etdiyi maraqlı və bənzərsiz jestlər obrazın xarakterinin açılmasına, tanıdılmasına səbəb olub. Filmdə onun öz adı ilə canlandırdığı obrazın (Fazil) tənbəl, hardasa yalançı, bamazə xüsusiyyəti personajın dəqiq həyat mövqeyi olmadığından xəbər verir. Obrazın dialoq və monoloqlarını, jest və hərəkətlərini izlədikcə də həyat tərzinin mahiyyəti, sonrakı yaşamı haqqında narahatlıq hissi keçirirsən. Düşünürsən ki, görəsən, məqsədyönlü missiyası olmayan, rahat, bəsit həyat tərzi arzulayan gənci ətrafı, mühiti və aşiq olduğu qız ciddi qəbul edəcəkmi?

Dənizdə, qurudan kilometrlərlə uzaqda salınan “Neft Daşları”nda yaşayan insanların rahatlığını təmin etmək, onlara estetik gözəllik bəxş etmək məqsədilə qurudan torpaq daşınıb, güllər becərilib, park salınıb. Bağban Qulam dayı (aktyor Yusif Yulduz) min bir əziyyətlə becərdiyi güllərin hər gün dərildiyindən narahatdır. Şübhələr şəhərciyin sakinlərindən olan Samiyə adlı qıza aşiq olan baməzə xarakterli Fazilin üzərində cəmlənib. Nəhayət ki, Samiyə dənizin ortasında min bir əziyyətlə yetişdirilən gül oğrusunu tutur və onu bağbana təhvil verməyə tələsir. Cütlüyün (Samiyə və Fazilin) vəziyyətə uyğunlaşdırılmış mimika və jestləri, pantomim hərəkətləri, susqun dialoqları personajların mübaliğəli və anlaşılmaz münasibətini şərh edir.

Samiyə “Neft Daşları”na yeni gələn, burdakı həyata alışmayan “gül oğrusu”na acıqlı olsa da, xaraktersiz “qəhrəman”ın cahil davranışının səbəbini ona olan sevgisi ilə əlaqələndirir. Qızı məsum baxışları ilə müşayiət edən fərsiz və ümidsiz gəncin gülməli durumu və qəribə cəhətləri filmin süjetini komik səmtə yönəldir, hadisələrə rəng qatır. Cavabsız sevginin (Kamrana olan hisslərinin) kədərini hiss edən Samiyə isə “cəfakeş” aşiqin şanssızlığını onun öz boyuna biçir, sevgisinin uğursuzluğunu boylarının uyğunsuzluğu ilə əlaqələndirir. Vəziyyətdən yaranan gülməli situasiyalar vasitəsilə də paradoksal prinsiplərin məzmunu açılır, peşəkar rejissor traktovkasında, məharətli aktyor ifasında sadə priyomlarla həyatın daha dərin qatlarına nüfuz edilir, qəribə və fərqli münasibətlər fonunda düşündürücü həssas nüanslar qabardılır. Hadisələrə intuitiv yanaşma, peşəkar təqdimat sayəsində də personajlar lazımsız dialoqdan, şablon ifadən xilas olur, filmin məna dəyəri artır, süjeti zənginləşir. Beləcə, Fazil Salayevin kinodakı debüt rolunun uğuru məhz bu kimi faktlara əsasən karyerasına işıq salır.

### Kino karyerasında ardıcıllıq

“Möcüzələr adası” filmindən sonra istedadlı aktyor “Ulduz” kinokomediyasında müxbir, “Sən niyə susursan?”da Ramazan, “Bir cənub şəhərində” filmində məhəllə sakini, “Şərikli çörək” kinodramında Məhəmməd, “Bizim Cəbiş müəllim”də Mıkkı, “Axırıncı aşırım”da Rəşid, “Ömrün səhifələri” kinoalmanaxına daxil olan “Rəqiblər” novellasında Fazil, “Alma almaya bənzər”də Mehdi, “Dərviş Parisi partladır”da Qulaməli, “Ürək, ürək”də usta, “Şir evdən getdi” filmində İbrahim və “Mozalan” satirik kinojurnalında maraqlı, koloritli rollar yaradıb.

Müxtəlif janrlı filmlərdən də görünür ki, hər bir rol aktyordan fərqli yaradıcılıq, yeni axtarışlar tələb edib. Güclü intuisiya və səhnə plastikasına əsasən ekran obrazlarını yaddaşlara yazan aktyorun uğurlu yaradıcılığı bir daha sübut edir ki, Fazil Salayev hər janr və üsluba uyğun yaradıcılıq nümayiş etdirməyi bacaran sənətkar idi. Kamera qarşısındakı personajlara uyğunlaşdırdığı jest və hərəkətlərinin dolğunluğu isə sənət texnikasını bilməsindən, dəqiq müşahidə qabiliyyətinin zənginliyindən irəli gəlirdi.

“Sən niyə susursan?” filmində cinayətkarın cahil xüsusiyyətləri, cəmiyyət üçün təhlükəli olması personajın görünüş və davranışında əksini tapıb. Obrazı anidən maşının qarşısına atılan görən tamaşaçı üçün tipin kimliyi maraq doğurur, sürücü (Rasim) ilə dörd dəqiqəlik dialoqu sayəsində isə onun təhlükəli kimliyi bəlli olur. Çirkin məqsədini həyata keçirmək üçün heç nədən çəkinməyən, yalana və hiyləyə əl atan bu obraz “utan utanmazdan, qorx qorxmazdan” deyiminin əyani sübutunu göstərir, həmçinin doğru aktyor yanaşması (rola münasibəti) incə, kövrək hisslərin kölgəsində gizlənən bədniyyətli caninin simasında insanlara hər an ayıq-sayıq olmaları mesajını çatdırır. Fazil Salayevin peşəkarlığı da ekran obrazlarına ayrılan az müddət ərzində çox söz ifadə etməsində idi. Hafizələrdə iz salan kiçikplanlı rolun mahiyyətini dərk etdikcə aktyorun sənət qarşısında nə qədər böyük məsuliyyət daşıdığını, tamaşaçılara olan sevgisini ifası vasitəsilə çatdırdığını görürük. Bu rolların peşəkar, anlayışlı təqdimatını izlədikcə isə Fazil Salayev imzasını ustad sənətkar kimi qəlblərimizə yazırıq.

### Xarakterlər ustası

Kino hər zaman teatr aktyorlarına böyük məmnuniyyətlə qucaq açıb. Fazil Salayev uzun illər çalışdığı teatrdan (Akademik Dram Teatrı) küsüb kinoya üz tutduğu vaxtlarda da korifey kino rejissorlarımızdan H.Seyidbəyli, Ş.Mahmudbəyov, K.Rüstəmbəyov, A.Babayev və digərləri böyük məmnuniyyətlə aktyorun yaradıcılığına müraciət etdilər. Çünki yaxşı bilirdilər ki, kiçik rolun mahiyyətini təsdiqləmək, rejissor ideyasını azhəcmli rolda belə cilalamaq mürəkkəb olduğu qədər də maraqlı jestlər sahibinin yaradıcılıq prinsipidir. Buna görə də belə rolları böyük məmnuniyyətlə xarakterlər ustasına həvalə edirdilər.



“Dərviş Parisi partladır” filmini yada salaq. İlk baxışda avam və fərsiz görünən Qulaməli əslində hiyləgər və fırıldaqçıdır. O, dərvişin əmrlərinə can-başla tabe olaraq insanların sadəlövhlüyündən istifadə edir, təmkinlə, bacarıqla onları aldadır. Filmin finalında Qulaməlinin susqun və nigaran halda öz “məharəti”nin nəticəsini gözlədiyini görürük. Qulluqçu Sənəmə (Səfurə İbrahimova) dərvişin göstərdiyi mərəkənin mahiyyətini anlamağa çalışan baxışlarında inamsızlıqla yanaşı, narahatlıq da var. Yanğından (partlayışdan) sonra isə tökülmüş üst-başına əhəmiyyət verməyən Qulaməlinin hətta dərvişin ona təlaşla dediyi “ay axmaq, bu qədər də barıt qoymaq olar...” sözünə də biganə reaksiya verərək saya salmır. Çünki ətrafdakılar üçün təhlükə yaradan “bacarığı” onun məmnunluqla izlədiyi “qələbəsidir”, “əməyinin bəhrəsi”dir.

Fazil Salayevin əminliklə mizan verdiyi, səmimiyyətinə və reallığına inandırdığı rolların məzmunu filmlərin süjetinin məna dəyərini artırır və tamamlayır. Rolun psixologiyasının, tanıtım xəttinin hansı vacib nöqtədən vurğulanmalı olduğunu dəqiq çatdıran aktyorun mənalı baxışı, orijinal, koloritli jestləri tamaşaçı fikrini doğru səmtə yönəldir, çəkildiyi kadrlar düşüncə mənbəyinə çevrilir. Elə buna görə də forma və məzmunundan asılı olmayaraq bütün rolları hafizələrə yazılıb, yaddaşlarda iz salıb.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

Kitab rəfi

## Şairələrimizin əsərləri fin dilində nəşr edilib

Azərbaycanlı şairələrin əsərlərinin antologiyası Finlandiyanın “Palladium kirjat” nəşriyyatında çap olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, kitab XII əsrdən müasir dövrümüzə qədər olan müddəti əhatə edir. Buraya klassiklərimiz Məhsəti Gəncəvi, Xurşudbanu Natəvan, Ağabəyim Ağadan tutmuş sovet dönəminin şairələri Nigar Rəfibəyli, Mirvarid Dilbazi və digərlərinin əsərləri daxildir. Müasir Azərbaycan lirikasını filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva təmsil edib. Məcmuəni Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın şeirləri tamamlayır. Onun “Gedim, azca ağlayım” şeirindən olan sətir kitabın başlığı üçün seçilib.

Antologiyanın payızda Bakı və Helsinkidə təqdimat mərasiminin keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, layihəni soydaşımız Tahirə Cəfərova həyata keçirib. O, ilk dəfə deyil ki, fin xalqını ədəbiyyatımızla tanış edir. 2016-cı ildə onun tərcüməsi əsasında Azərbaycan poeziyasının “Mən balıq qulağında gizli mirvariyəm” antologiyası nəşr olunub.

## “Azərbaycan musiqi tarixi”nin növbəti cildi təqdim olunacaq

Sentyabrın 20-də Əməkdar incəsənət xadimi, musiqişünas, akademik Zemfira Səfərovanın “Azərbaycan musiqi tarixi” kitabının təqdimat mərasimi keçiriləcək.

Kitabın IV cildində bəstəkarlarımızın ötən əsrin 50-60-cı illərindən sonra formalaşmış yaradıcılığının və bu dövrün həyatının ümumi mənzərəsinin təhlili və tədqiqindən danışılır. Azərbaycan Bəstəkarlar İttifaqında keçiriləcək mərasim XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində reallaşacaq.

## Xatirə təqvimi 26-29 avqust

### Azərbaycan

**26 avqust 1892** – İctimai-siyasi xadim, publisist Seyid Cəfər Pişəvəri (1892 – 12.6.1947) Cənubi Azərbaycanın Xalxal mahalının Zeyvə kəndində anadan olub. 1945-1946-cı illərdə İranda azərbaycanlıların milli hərəkatına başçılıq edib, Cənubi Azərbaycan Milli Hökumətinin Baş Naziri olub.

**26 avqust 1940** – Əməkdar artist, müğənni İdris Saleh oğlu Mehdiyev (1940-2015) Gəncə şəhərində doğulub. Azərbaycan Televiziyası və Radiosu Xorunun solisti və direktoru olub.

**27 avqust 1921** – Yazıçı-dramaturq Seyfəddin Dağlı (Seyfəddin Əliağa oğlu Abbasov; 1921 – 18.1.1983) Xızıda doğulub. “Adı sənin, dadı mənim”, “Aydınlığa doğru” və s. pyeslərin, “Bahar oğlu”, “Məşəl” kitablarının müəllifidir. “Kirpi” jurnalının baş redaktoru olub.

**27 avqust 1928** – Əməkdar rəssam Nadir Əlimuxtar oğlu Zeynalov (1928 – 16.3.1987) anadan olub.

**27 avqust 1929** – Əməkdar mədəniyyət işçisi, aktyor, rejissor Məmmədkamal Allahqulu oğlu Kazımov (1929 – 13.12.2005) Bakıda anadan olub. Akademik Dram, Sumqayıt, Ağdam teatrlarında çalışıb, filmlərdə (“Yol əhvalatı”, “Güllələnmə təxirə salınır!...”) çəkilib.

**27 avqust 1998** – Görkəmli kinorejissor, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadə (7.2.1919 – 1998) vəfat edib. Çəkdiyi filmlər: “Görüş”, “Uzaq sahillərdə”, “Yeddi oğul istərəm”, “Dədə Qorqud” və s.

**28 avqust 1935** – Yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (1935 – 9.10.2009) Biləsuvar rayonunun Ağalıkənd kəndində doğulub. “İtkin gəlin”, “Əfsanəsiz illər”, “Ayrılığın sonu yoxmuş”, “Təyyarə kölgəsi”, “Vəfalım mənim” və s. əsərləri geniş oxucu rəğbəti qazanıb.

**28 avqust 1948** – Musiqişünas, sənətşünaslıq doktoru, professor Elxan Əlisəttar oğlu Babayev (1948 – 2.2.2003) anadan olub.

**28 avqust 1968** – Aşıq Xındı Məmməd (Məmməd Gülabı oğlu Qəniyev; 1896, Borçalı – 1968) vəfat edib.

**29 avqust 1890** – Şair, qəzəlxan Məhəmmədəli Şəfai (1890-1967) Bakının Maştağa kəndində anadan olub.

**29 avqust 1960** – Telejurnalist, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Fuad oğlu Mustafayev (1960 – 15.06.1992) anadan olub.

**29 avqust 1965** – Məşhur tarzən, Xalq artisti Qurban Bəxşəli oğlu Pirimov (30.10.1880 – 1965) vəfat edib. 1920-ci ildən Opera və Balet Teatrının solisti olub.

### Dünya

**26 avqust 1880** – İtalyan-polyak əsilli Fransa şairi Qiyom Apolliner (Guillaume Apollinaire - Wilhelm Albert Vladimir Apollinaris de Waż-Kostrowitcki; 1880-1918) anadan olub. Əsərləri: “Həyatı məhəbbətə həsr etmək”, “Mirabo körpüsü” və s.

**26 avqust 1913** – Rus yazıçısı Aleksandr Çakovski (1913-1994) anadan olub. “Blokada”, “Qələbə” və s. romanların müəllifidir.

**26 avqust 1914** – Argentina yazıçısı və şairi Xulio Kortasar (Julio Florencio Cortazar; 1914-1984) anadan olub. Əsərləri: “Uduş”, “Sonuncu raund”, “Manuelin kitabı” və s.

**27 avqust 1770** – Alman filosofu Georq Vilhelm Fridrix Hegel (Georg Wilhelm Friedrich Hegel; 1770 - 14.11.1831) anadan olub. Əsərləri: “Ruhun fenomenologiyası”, “Məntiq elmi”, “Tarixin fəlsəfəsi” və s.

**27 avqust 1856** – Klassik Ukrayna ədəbiyyatının banilərindən biri, yazıçı, şair İvan Franko (1856-1916) anadan olub. Əsərləri: “Kəsişən cığırlar” (roman), “Oğurlanmış xoşbəxtlik” (şeirlər toplusu).

**27 avqust 1871** – Amerika yazıçısı Teodor Drayzer (Theodore Herman Albert Dreiser; 1871 - 28.12.1945) anadan olub. Əsərləri: “Kerri bacı”, “Cenni Gerhardt”, “Arzular trilogiyası”, “Amerika faciəsi”, “Dahi” və s.

**27 avqust 1896** – Rus aktrisası, SSRİ Xalq artisti Faina Ranevskaya (Feldman; 1896-1984) anadan olub. Bir müddət (1925-1927, 1929-1931) Bakı İşçi Teatrında çalışıb.

**28 avqust 1749** – Görkəmli alman şairi, yazıçı-dramaturq Yohann Volfqanq Höte (Johann Wolfgang von Goethe; 1749 - 22.3.1832) anadan olub. Əsərləri: “Faust” mənzum tragediyası, “Vilhelm Meysterin təhsil illəri”, “Gənc Verterin iztirabları” romanları, “İfigeniya”, “Torkvato Tasso” dramları və s.

**28 avqust 1867** – İtaliya bəstəkarı Umberto Cordano (Umberto Menotti Maria Giordano; 1867-1948) anadan olub. Operaları: “Andre Şenye”, “Fedora”, “Sibir”, “Madam Sen-Jen” və s.

**28 avqust 1925** – Yəhudi əsilli Rusiya yazıçısı Arkadi Natanoviç Struqaski (1925-1991) anadan olub. Qardaşı Boris Struqaski (1933-2012) ilə birgə yazdıqları fantastik əsərlərlə tanınıb: “Tünd qırmızı buludlar ölkəsi”, “Günorta, XXII əsr”, “Əsrin yırtıcı əşyaları” və s.

**29 avqust 1780** – Fransız rəssamı Jan Ogüst Dominik Enqr (Jean-Auguste-Dominique Ingres; 1780-1867) anadan olub.

**29 avqust 1862** – Belçika yazıçı-dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1911) laureatı Moris Meterlink (Maurice Polydore Marie Bernard Maeterlinck; 1862-1949) anadan olub. Əsərləri: “Göy quş”, “Beatris bacı” pyesləri, “Güllərin idrakı”, “Arıların həyatı” fəlsəfi pritçaları və s.

**29 avqust 1903** – Məşhur rus aktyoru Andrey Fayt (1903-1976) anadan olub. “Azərbaycanfilm”də lentə alınan “Uzaq sahillərdə” (Mazelli), “Bir qalanın sirri” (Göygöz kosa) filmlərində çəkilib.

**Hazırladı: Vüqar ORXAN**

## Musa Nağıyevə həsr olunmuş filmin təqdimatı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Mərdəkan Mədəniyyət Sarayında məşhur milyonçu, xeyriyyəçi Ağa Musa Nağıyevin vəfatının 100-cü ildönümünə həsr olunmuş “Nurlu əməllərin işığında” sənədli filminin təqdimatı keçirilib.

Ekran əsərinin layihə rəhbəri milyonçunun nəvəsi Dilarə Nağıyeva-Muxtarova, ssenari müəllifi və rejissoru Etibar Məmmədovdur.

Tədbirdə Xəzər Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdiri Gülbala Qurbanov, rayon Ziyalılar Cəmiyyətinin sədri, professor Təvəkkül Səlimov, Mərdəkan Mədəniyyət Sarayının direktoru Əliağa Mirzəyev və başqaları milyonçu-mesenatın fəaliyyəti haqqında danışıblar. Bildirilib ki, A.M.Nağıyev Bakının memarlığına gözəllik bəxş edən və qeyri-adi üslubu ilə seçilən 100-dək bina miras qoyub. Sübut edib ki, məhz tikililər silinməz varidatdır, qədim və müasir tariximizin arasında bir körpüdür.

Daha sonra sənədli film nümayiş olunub.

Sonda layihə rəhbəri tədbirin iştirakçılarına və təşkilatçılarına təşəkkürünü bildirərək Musa Nağıyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışıb.

# Musiqili avqust axşamları

## Heydər Əliyev Mərkəzinin parkında konsert proqramları təşkil olunub

Bakıdakı Heydər Əliyev Mərkəzi yay mövsümündə mütəmadi olaraq müxtəlif tədbirlər keçirir. Ayrı-ayrı idman növləri və incəsənət sahələrinə aid ustad dərsləri, məşğələlər, yarışlar, həmçinin konsertlər və rəqs axşamları təşkil edilir. Bu tədbirlər paytaxt sakinlərinin və qonaqların asudə vaxtlarını səmərəli və maraqlı keçirmələri, azyaşlıların istedad və bacarıqlarının aşkar edilməsi, inkişafı məqsədilə təşkil olunur.



Avqustun 26-da Heydər Əliyev Mərkəzinin parkında estrada ulduzlarının iştirakı ilə konsert keçirilib.

Konsertdə Əməkdar artist Miri Yusif, müğənnilər Dilarə Kazımova, Səmra Rəhimli, Rauf Əhmədov, reperlər Elşad Xose və "Qurd" tamaşaçılara maraqlı proqram təqdim ediblər.

Hazırda Moskvada yaşayan azərbaycanlı ifaçı Jony də gecənin xüsusi qonağı olub. Konsert proqramı çoxsaylı tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Heydər Əliyev Mərkəzinin parkında avqustun 24-də keçirilən konsertdə isə Xalq artisti Faiq Ağayev çıxış edib.

Estrada ulduzu tamaşaçılar qarşısına repertuarındakı məşhur mahnılar ilə çıxıb. Konsert proqramı izləyicilərdə coşqu doğurub.

Mərkəzin parkında avqustun 25-də ilk dəfə təşkil olunan "Red Bull Dance Your Style" rəqs yarışması da böyük izləyici kütləsi toplayıb.

"Red Bull Dance Your Style" müxtəlif küçə üslublu rəqslərini nümayiş etdirən rəqqasların iştirak etdikləri beynəlxalq rəqs yarışmasıdır. Yarışma 2018-ci ildə 20 ölkədə keçirilib. 2019-cu il ərzində isə dünyanın 30-dan çox ölkəsində və 50 ayrı məkanda keçirilir.

Bakı seçimlərində 16 yerli rəqqas iştirak edib. Yarışmada münsif heyəti olmayıb, münsiflər rolunda tamaşaçılar çıxış ediblər. Yarışmanın dünya üzrə finalı oktyabrın 12-də Parisdə keçiriləcək. Azərbaycandan olan qalib - Rayman Parisdə dünyanın ən yaxşı rəqqasları ilə mübarizə aparacaq.

Tədbirin qonaqları 2017-ci ildə Azərbaycanda keçirilən "Red Bull" musiqi yarışmasının qalibi DJ Timin təqdim etdiyi musiqilərdən zövq alıblar. Onu da qeyd edək ki, DJ Tim 2018-ci ildə Polşada keçirilən "Red Bull" dünya musiqi çempionatında Azərbaycanı təmsil edib.

Yarışmanın sonunda müğənni Rauf Əhmədov çıxış edib.





# "Master və Marqarita" növbəti dəfə ekranlara çıxacaq

Mixail Bulqakovun əsəri əsasında hazırlanan "Master və Marqarita" filminin çəkilişləri 2020-ci ilin payızında başlayacaq.

Bu layihə Rusiyada son illərdə çəkilən ən yüksək büdcəli ekran əsərlərindən biridir. Rejissor Nikolay Lebedevin çəkəcəyi filmdə əcnəbi aktyorların iştirakı gözlənilir.

Bulqakovun məşhur əsəri bir neçə dəfə ekranlaşdırılıb. Romanın motivləri əsasında ilk film 1971-ci ildə Andjey Vayda tərəfindən çəkilib. Bir ildən sonra Aleksandr Petroviçin ekran əsəri işıq üzü görüb. 1989-cu ildə rejissor Matsey Voytışko dördseriyalı televiziya filmini çəkib. 1994-cü ildə "Master və Marqarita"nı Yuri Kara ekranlaşdırsa da, film müəyyən səbəblər üzündən 17 ildən sonra ekranlara çıxıb. 2005-ci ildə isə Vladimir Bortko öz versiyasını təqdim edib.

# Ukraynanın "Oskar"a namizəd filmi Krım tatarı haqqındadır

Ukraynanın "Oskar" komitəsi rejissor Nəriman Əliyevin Krım tatarının hekayəsini əks etdirən "Dodomu" filmini "Xarici dildə ən yaxşı film" nominasiyasında mükafata namizəd göstərib.

Ekran əsəri bu il Odessada beynəlxalq festivalın baş mükafatına layiq görülüb, həmçinin Kann kinofestivalında nümayiş etdirilib.

Baş rolları Ahtem Seyidablayev və Rəmzi Bilalovun oynadığı filmin Ukraynada premyerasının noyabrın 7-də keçirilməsi nəzərdə tutulur.

"Oskar" mükafatına namizədlərin yekun siyahısı 2020-ci il yanvarın 13-də elan ediləcək, təqdimat mərasimi isə həmin il fevralın 9-da Los-Ancelesdə keçiriləcək.

# Depardye Brejnev rolunda

Fransanın məşhur aktyoru Jerar Depardye "İnsan siması" filmində keçmiş SSRİ-nin rəhbəri –Sovet İttifaqı Kommunist Partiyasının baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Leonid İliç Brejnevi canlandırmağa razılıq verib.



1968-ci ildə Çexoslovakiyada (Çexiya və Slovakiya 1992-ci ilədək vahid dövlət olub) baş vermiş hadisələrə ("Praqa baharı") həsr olunan ekran əsərinə xorvatiyalı rejissor Lordan Zafranoviç quruluş verəcək.

"Biz Depardye ilə müqavilə imzalamışıq. Sentyabrda onun komandası ilə görüşəcək və detalları müzakirə edəcəyik", - deyə filmin prodüseri Andrey Leka bildirib.

Çəkilişlərin başlanması isə 2021-ci ildə nəzərdə tutulub. Büdcəsi 10 milyon dollardan artıq olacaq ekran əsərinin dünya premyerası 2022-ci ilə planlaşdırılıb.

**SƏBİNƏ**

# "Matrix"in dördüncü hissəsi çəkiləcək

Dünyanın ən böyük kino və televiziya şirkətlərindən olan "Warner Bros. Entertainment" məşhur elmi-fantastik filmin – "Matrix"in dördüncü hissəsinin çəkiləcəyini açıqlayıb.



"Matrix 4"də baş rollarda yenə Keanu Rives ("Neo") və Karrie-Anne Moss ("Trinity") olacaq. "Warner Bros" və "Village Roadshow Pictures"in müştərək çəkəcəyi filmin rejissoru və ssenari müəllifi Lana Wachowski olacaq. "Matrix 4"ün əvvəlkilərin "davam filmi" olub-olmayacağı isə hələ açıqlanmayıb.

"Matrix" filmlərinin ilk hissəsi 20 il əvvəl çəkilib. "Matrix" filmlərinin hər üç hissəsinin birlikdə nümayişindən əldə olunan məbləğ 1 milyard 600 milyon dollar olub.

Qeyd edək ki, üçüncü "Matrix Revolutions" filminin axırında insanla texnika arasında müharibə həssas bir həll yolu ilə başa çatıb.

**İLONA**

# Azərbaycan tailandlı turistlərin diqqətini cəlb edə bilər

Azərbaycan ilə Tailand arasında birbaşa aviareysin açılması iki ölkə arasında turist axınını daha da artıracaq.



Bu sözləri müsahibəsində "Tailanddan MDB ölkələrinə" adlı infotur layihəsi çərçivəsində Bakıda təşkil olunan təqdimat mərasimində bu ölkənin turizm üzrə rəsmisi Srisuda Vanapinyosak deyib.

Bakıya ilk dəfə səfər etdiyini deyən qonaq Heydər Əliyev Beynəlxalq Hava Limanı və "Silk Way Travel" turizm şirkətinin nümayəndələri ilə səmərəli görüşlər keçirdiyini bildirib: "Azərbaycan, xüsusilə də paytaxt Bakı çox gözəldir. Tailandlı turistlərin diqqətini cəlb etmək, onların ölkənizə gəlməsini təmin etmək və onları Azərbaycanın zəngin mədəniyyəti və tarixi, eləcə də insanları ilə yaxından tanış etmək üçün böyük bir potensial mövcuddur. Lakin tailandlılar ölkəniz haqqında məlumatlı deyillər. Düşünürəm ki, onlar Azərbaycan haqqında daha çox məlumatlandırılsa, buraya daha çox gəlmək istəyərlər".

Srisuda Vanapinyosak hər il 2 minə yaxın azərbaycanlı turistin Tailanda səfər etdiyini qeyd edib: "İki ölkə arasında birbaşa uçuşların həyata keçirilməsi sayəsində hər iki ölkənin vətəndaşları üçün səfər etmək daha da asanlaşacaq".

Türk dünyası

# Türkiyədə Nəsiminin 650 illiyinə həsr olunan xatirə sikkəsi buraxılıb

Türkiyə zərbxanası ölkəmizin Ankaradakı səfirliyinin təşəbbüsü ilə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili"nə həsr olunan bürünc sikkə – xatirə pulu buraxılıb.




Ölkəmizin Ankaradakı səfirliyindən verilən məlumata görə, İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" haqqında Prezident İlham Əliyevin sərəncamlarından irəli gələn layihələrin icrasını təmin etmək məqsədilə Türkiyə Respublikası Zərbxanasının rəhbər şəxsləri ilə görüş keçirilib və Nəsiminin adının əbədiləşdirilməsi məqsədilə xatirə pulunun buraxılması ilə bağlı razılıq əldə olunub.

Xatirə pulunun ön tərəfində İmadəddin Nəsiminin şəkli, "İmadeddin Nesiminin doğumunun 650. yılı" yazısı, arxasında isə "Türkiye Cumhuriyeti 2,5 lira" yazısı yer alıb.

# Özbəkistanda mədəni irs həftəsi

Özbəkistanın Daşkənd, Termez, Səmərqənd və Buxara şəhərlərində "Özbəkistan – yolların ayrıcı və sivilizasiya: imperiyalar, dinlər, mədəniyyətlər" adlı mədəni irs həftəsi keçirilib.



Avqustun 27-dək davam edən tədbirlərdə dünyanın 40 ölkəsindən gələn şərqşünas alim, ekspert, UNESCO-nun yüksək səviyyəli nümayəndələri iştirak ediblər.

Azərbaycan Milli Elmlər Akademiyasının akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik Şahin Mustafayevin rəhbərliyi ilə ölkəmizin alimləri də tədbirlərə qatılıblar.

Həftə çərçivəsində Daşkənddə Özbəkistan mədəni irsinin qorunması, öyrənilməsi və populyarlaşdırılması üzrə 3-cü Beynəlxalq konqres, "Kuşan xəzinəsi" və "Özbəkistanın nadir alyazma abidələri" adlı sərgilər təşkil olunub. Termezdə "Özbəkistan – sivilizasiyanın kəsişdiyi məkan" adlı tədbir keçirilib.

Qonaqlar UNESCO-nun himayəsi altında Səmərqənddə keçirilən "Maddi və qeyri-maddi mədəni irsin qorunması: aktual problemlər və strategiyalar" adlı tədbirdə, həmçinin "Şərq tərənələri" XII Beynəlxalq Musiqi Festivalının açılış mərasimində (26 avqust) də iştirak ediblər.

# Cuçi xanın məqbərəsi turizm obyekti olacaq

Qazaxıstanın Ulytau rayonunun beynəlxalq səviyyəli etnoqrafik turizm mərkəzinə çevrilməsi nəzərdə tutulur.

Prezident Kasım-Jomart Tokayevin təşəbbüsü ilə başlanan işlər Qızıl Ordanın 750 illik yubileyinə həsr olunub. Dövrünün ən böyük imperiyası olmuş Qızıl Ordanın əsası Çingiz xanın oğlu Cuçi xan tərəfindən qoyulub və onun oğlu Batı xan tərəfindən sərhədləri Avrasiyanın şərqdən qərbə coğrafiyasında genişləndirilib.



Ulytaunu qazax xalqının tarixinin qızıl beşiyi adlandıran ölkə başçısı Çingiz xanın böyük oğlu Cuçi xanın məqbərəsinin Qazaxıstanda olmasından çoxlarının xəbərsiz olduğunu deyib: "Ulytau bizim üçün xüsusi hörmətə yanaşdığımız qazax torpağının mərkəzi hesab olunur. Buna görə də əcnəbiləri xalqımızın əvəzolunmaz zəngin irsi və tarixi şəxsiyyəti ilə tanış etməli, Qızıl Ordanın qurucusu Cuçi xanın məqbərəsini mədəni turizm obyektinə çevirməliyik".

**Mehparə SULTANOVA**

Mədəniyyət Nazirliyinin rəhbərliyi və kollektivi Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanova anası

**Dilarə Sultanovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin kollektivi Xidmətin rəisi Zakir Sultanova anası

**Sultanova Dilarə Teymur qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5150
**Sifariş:** 2866

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.